# “MET-AK”
# MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

*Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 3 000 (üç min) ədəd faizli, təminatsız, sənədsiz, adlı istiqrazların*

# EMİSSİYA PROSPEKTİ

**Qeyd:** Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

**Bakı-2018**

Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

# BƏYANAT

Biz, aşağıda imza edənlər,

1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.
2. "MET-AK" MMC-nin hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 3 000 (üç min) ədəd faizli, təminatsız, sənədsiz, adlı istiqrazlarının Emissiya Prospektinə daxil edilən məlumatların rəsmi sənədlərdə əks olunan həqiqi faktlar əsasında, heç bir təhrifə yol vermədən və hər hansı bir təhrifin qarşısının alınması üçün bütün zəruri tədbirlərin görüldüyünə təminat verir, həmçinin məsuliyyəti öz üzərimizə götürürük.

"MET-AK" Məhdud Məsuliyyətli Cəmiyyətinin Direktoru

Kərimov Aydın Alik oğlu

# MÜNDƏRİCAT

XÜLASƏ.......... 4

I. İstiqrazların Emitenti barədə məlumat.......... 11
II. İstiqrazlar barədə məlumat.......... 18
III. Təklifin şərtləri.......... 21
IV. Ticarətə buraxılma və onun tənzimlənməsi.......... 23

Bakı-2018

# XÜLASƏ

## • Xəbərdarlıq.

• Bu sənəd emissiya prospektinin giriş hissəsidir;

• İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir;

• Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya İstiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

## 1. Emitent haqqında məlumat

1.1. **Emitentin tam adı:** "MET-AK" Məhdud Məsuliyyətli Cəmiyyəti.

1.2. **Emitentin qısaldılmış adı**: "MET-AK" MMC.

1.3. **Emitentin dövlət qeydiyyat nömrəsi və tarixi**: 1500018681, 10.01.1997-ci il.

1.4. **Emitentin olduğu yer və emitentin qeydiyyatda olduğu ölkə**: AZ1029, Bakı şəhəri, N.Nərimanov rayonu, Böyük Şor 15 A, Dalan 2.

**2. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:** 2017-ci ildə plastik boru və fittinq bazarında ciddi artım müşahidə olunmuşdur. Bu birbaşa "Met-ak" MMC şirkətinin satışlarının əvvəlki illərlə müqayisədə nəzərə çarpacaq dərəcədə artımına səbəb olmuşdur. Bundan əlavə, cənab prezidentin kənd təsərrüfatının inkişafına verdiyi dəstək nəticəsində, kənd təsərrüfatı sahələrinin dinamik inkişafı əsaslı dərəcədə hiss olunmaqdadır. Məlum olduğu kimi, "Met-Ak" şirkəti kənd təssərrüfatı təyinatlı məhsulların (meyvəçilikdə istifadə olunan müxtəlif ölçülü taraların) istehsalına başlamışdır. Həmin məhsullar üzrə çoxlu sayda sifarişlərin qəbul edilməsi, növbəti illərdə gəlirlərin əsaslı şəkildə artacağına işarədir. Bundan əlavə müəssisə elektrik qaynaqlı polad boruların istehsalını da planlaşdırır. Qeyd edək ki, "Met-Ak" MMC həm istehsal və də ticarətlə məşğuldur və elektrik qaynaqlı polad boruları idxal edib ticarətini həyata keçirir. Növbəti ildən bu növ məhsulun istehsal olunması, idxal zamanı meydana çıxa biləcək potensial riskləri (məsələn: İdxal rüsumlarının artırılması) minimallaşdırmaq üçün olduqca vacib amildir.

3. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Emitentin törəmə və digər müəssisələrin nizamnamə kapitalında iştirak payı mövcud deyildir.

4. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:**

| Dövr (AZN) | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|
| Əməliyyat Gəlirləri | 18,722,925 | 29,506,802 | 35,179,181 | 40,068,177 |

5. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**

Müstəqil auditor şirkəti olan "Prime Audit & Consulting" MMC-nin verdiyi audit rəyinə əsasən "Met-Ak" MMC müvafiq dövr üçün hazırladığı maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Milli Mühasibat Standartlarına uyğun olaraq düzgün əks etdirir.

6. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə malumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə malıumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

   Emitentin son üç maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı növbəti səhifədə ətraflı qeyd edilmişdir:

## MALİYYƏ VƏZİYYƏTİNƏ DAİR HESABAT

**(Min Azərbaycan Manatı ilə)**

| AKTİVLƏR | 2017-6 aylıq | 2016 | 2015 |
|---|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | | |
| Binalar, Qurğular və Avadanlıqlar | 16,382 | 4,026 | 5,125 |
| Qeyri maddi aktivlər | 200 | 150 | 8 |
| Digər uzunmüddətli aktivlər | 452 | 42 | 2 |
| **Cəmi uzunmüddətli aktivlər** | **17,034** | **4,218** | **5,135** |
| **Cari Aktivlər** | | | - |
| Mal-material Ehtiyyatları | 22,544 | 19,800 | 9,310 |
| Hazır Məhsul | 5,822 | 9,330 | 5,055 |
| Debitor borcları | 7,508 | 3,622 | 269 |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 1,322 | 49 | 216 |
| Vergi hesabı üzrə artıq ödəmə | 653 | 2,721 | 1,915 |
| Verilmiş Avanslar Üzrə Hesablaşmalar | 3,696 | 4,596 | 1,410 |
| **Cəmi cari aktivlər** | **41,545** | **40,118** | **18,175** |
| **CƏMİ AKTİVLƏR** | **58,579** | **44,336** | **23,310** |
| | | | |
| **KAPİTAL** | - | | |
| Cari İlin Mənfəəti | - | 3,158 | (5,875) |
| Səhmdarlarla hesablaşmalar | 12,364 | 11,190 | 11,190 |
| Nizamnamə Kapitalı | - | 0 | - |
| Bölüşdürülməmiş Mənfəət | 12,647 | (7,217) | (1,342) |
| Müəssisənin Səhmdarlarına aid Kapital | **25,011** | **7,131** | **3,973** |
| **CƏMİ SƏHMDAR KAPİTALI** | **25,011** | **7,131** | **3,973** |
| | | | |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Cari öhdəliklər** | | | |
| Qısa müddətli kreditlər | 17,431 | 10,725 | 8,856 |
| Kreditor borcları | 9,029 | 2,290 | 1,165 |
| Əmək Haqqı Borcları | 53 | 21 | 63 |
| Digər qısa müddətli öhdəliklər | 1,596 | 23,484 | 9,243 |
| Alınmış avanslar üzrə hesablaşmalar | | 685 | 10 |
| **Cəmi cari öhdəliklər** | **28,109** | **37,205** | **19,337** |
| | - | | |
| **Uzunmüddətli öhdəliklər** | - | | |
| **Uzun müddətli bank kreditləri və borclar** | **5,459** | | |
| **Cəmi Uzun müddətli öhdəliklər** | **5,459** | | |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **33,568** | 37,205 | 19,337 |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **58,579** | **44,336** | **23,310** |

## MƏCMU GƏLİR HAQQINDA HESABAT

**(Min Azərbaycan Manatı ilə)**

| | 2017-(6 aylıq) | 2016 | 2015 |
|---|---|---|---|
| Məhsul satışından gəlir | 31,423 | 28,505 | 4,425 |
| Satılmış məhsulun maya dəyəri | -23,966 | (21,276) | (3,386) |
| **Ümumi mənfəət** | **7,457** | **7,229** | **1,039** |
| Ümumi və inzibati xərclər | -2,675 | (3,057) | (3,773) |
| **Əməliyyat gəliri** | **4,782** | **4,172** | **(2,734)** |
| Maliyyə xərcləri | -1,426 | (797) | (981) |
| Məzənnə fərqi üzrə gəlir (zərər) | -232 | (217) | (2,160) |
| **Mənfəət vergisinə qədər olan mənfəət** | **3,124** | **3,158** | **(5,875)** |
| **Mənfəət vergisi xərci** | | | |
| **Dövr üzrə mənfəət** | **3,124** | **3,158** | **(5,875)** |
| **Digər məcmu gəlirlər** | | | |
| **Mənfəət Vergisi** | | | |
| **İl üzrə cəmi məcmu gəlir** | **3,124** | **3,158** | **(5,875)** |
| **İl üzrə cəmi məcmu gəlir** | **3,124** | **3,158** | **(5,875)** |

Son dərc olunmuş audit hesabatından sonrakı maliyyə ili (2017-ci il) tamamlanmadığına görə audit hesabatı tərtib olunmamışdır. Son audit hesabatı verilən tarixdən (2016-cı il) sonrakı ildə müəssisənin fəaliyyətində hər hansı neqativ hal qeydə alınmamışdır. Müəssisənin davamlı fəaliyyəti təmin olunmaqdadır və planlaşdırılan əlavə istehsal sahələri aktiv fəaliyyət fazasına keçmişdir. Maliyyə göstəricilərimizə əsaslanaraq deyə bilərik ki, 2017-ci il üzrə satış, 2016-cı ildəki satışdan 2.5 dəfə çoxdur.

7. **Emitentin ödəmə qabiliyyətinə təsir edən ən son hadisələr:**

Müəssisənin ödəmə qabiliyyəti 2017-ci ildə ötən ilə nisbətdə nəzərə çarpacaq dərəcədə yüksəlmişdir. Buna səbəb satışların və müvafiq olaraq pul axınlarının 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfədən artıq daxil olması, yeni əməkdaşların işə cəlb edilməsi ilə dövriyyə vəsaitlərinin idarə edilməsi prosesinin effektivliyinin artırılması və müvafiq öhdəliklərin qrafik üzrə ödənilməsi ilə bağlıdır. Qeyd olunan müsbət dəyişikliklər və müəssisənin cari fəaliyyətinin plana uyğun həyata keçməsi, yeni məhsul növləri üzrə sifarişlərin artması 2018-ci ildə satış həcminin 100 milyon AZN-ni keçəcəyini proqnoz verməyə əsas verir.

8. **Emitentin əsas fəaliyyətlərinin təsviri:**

"Met-Ak" MMC 1997-ci ildən fəaliyyətdədir. Fəaliyyətinin ilk dövrlərində polad boruların idxalı və ticarəti ilə məşğul olan müəssisə sonradan plastik boru və fittinqlərin istehsalı ilə məşqul olmağa başlamışdır. Plastik məmulat istehsalının əsasını təşkil edən qəliblərin (pres-formaların) müəssisənin özü tərəfindən istehsal edilməsi bazarda möhkəmlənməyə səbəb olmuş və əsas rəqibləri bazardan sıxışdırıb çıxarmağa nail olmuşdur. Müəssisə fəaliyyətini daha da genişləndirmiş və hazırda aşağıdakı sadalanan fəaliyyət növləri üzrə fəaliyyətini davam etdirməkdədir

* Polad borular, təbəqələr, künclüklər, şvellerlər, ikitavrlar və fitinqlərin idxalı və satışı;
* Plastik boru və fitinqlərin istehsalı və satışı;
* Tikinti işkələlərin və dirəklərin istehsalı və satışı;
* Müxtəlif təyinatlı iri plastik konteynerlərin istehsalı və satışı;
* Qəlib istehsalı və satışı;
* Əlvan metalların təkrar emalı və satışı;
* Plastiklərin təkrar emalı;
* Kənd təsərrüfatı təyinatlı məmulatların istehsalı və satışı (taralar, beton dirəklər və s.)
* Bağ salma fəaliyyəti üzrə məsləhət xidməti və bağların sıfırdan yığılması;
* Sifarişə uyğun müxtəlif metal konstruksiyaların istehsalı;
* Plastik əsaslı kompozit xammalın istehsalı və satışı;
* Metal və plastik məmulatların texniki tərkibinin analizi.

9. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xusisiyyətləri:**

Müəssisənin nizamnamə kapitalı 100% payla Kərimov Alik Kainbəy oğluna məxsusdur. Müəssisənin Direktorlar Şurasının tərkibi 3 nəfərdən ibarətdir: Müəssisənin direktoru Kərimov Aydın Alik oğlu, maliyyə departamentinin direktoru Zülfüqarov Fuad Zülfüqar oğlu, istehsalat üzrə direktor Əzizov Mübariz Səlimxan oğlu. Əsas inzibati idarəetmə qərarları kollegiyal səsvermə nəticəsində verilir. Hüquqi əhəmiyyətli qərarlar isə ümumi yığıncağının qərarı - təsisçi tərəfindən qəbul edilir.

## 10. Qiymətli kağızlar haqqında məlumat

a. **İstiqrazların növü:** faizli, təminatsız, sənədsiz, adlı istiqrazlar;

b. **İstiqrazların valyutası:** AZN

c. **İstiqrazlarla təsbit olunan məhdudiyyətlərin təsviri:** Qanunvericiliklə tənzimlənən prosedurlardan əlavə hər hansı bir məhdudiyyət nəzərdə tutulmamışdır.

d. **İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda İstiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik 12 (on iki) faiz olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emintentin ləğvi, yaxud, emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərər qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin, ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.
- İlk 180 gün (VI ay) ərzində geri satın alınmaya təqdim edilən istiqrazlar Unibank KB ASC tərəfindən;
- 181-ci gündən 273-cu günə (VI-IX ay) kimi geri satın alınmaya təqdim edilən istiqrazların 50%-i Unibank KB ASC, 50%-i isə METAK MMC tərəfindən;
- 274-cü gündən 365-ci günə kimi (IX-XII ay) METAK MMC tərəfindən.

e. **İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 12 (on iki) % təşkil edir. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər 3 (üç) təqvim ayından bir ödənilir.

**1.1. İstiqrazların geri satın alınma şərtləri: İstiqrazların geri satın alınmasının şərtləri: Yerləşdirilmiş isiqrazların geri satın alınması yerləşdirmənin başlandığı tarixdən etibarən hər otuz gündən bir istiqrazların nominal dəyəri ilə aşağıda göstərilən qaydada həyata keçiriləcəkdir. Emitent tərəfindən geri satın alınması nəzərdə tutulmamışdır.**

f. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:
TF=(N*D*G/365)/100
Burada,
TF- Bir istiqraz üzrə toplanmış faizlər;
N- Bir İstiqrazın nominal dəyəri (1.000 (bir min) AZN);
D- İstiqrazların illik gəlirlik dərəcəsi (12 (on iki)%);
G-istiqrazların ödəniş dövrünün müddəti - təqvim ayı.

g. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi buraxılış dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond

Birjası" QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların listiqə daxil edilməsi ilə bağlı müraciət Palata tərəfindən emissiya prospekti qeydiyyata alınıb, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

# 11. Risk faktorları

**a. Təklif olunan istiqrazlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- Faiz riski- faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- Hesablaşma və kontragent riski- hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- İnflyasiya riski- pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Əməliyyat riski- daxili proseslər, sistem pozğunluqları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- Kredit riski- borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- Likvidlik riski- müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- Təbii risk- insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, fors-major və s.);
- Valyuta riski- valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski.

## I. İstiqrazların emitenti barədə tələb olunan məlumatlar

## 2. Emitentin auditorları barədə məlumat

**2.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

"Prime Audit & Consulting" MMC; müəssisə Azərbaycan Respublikası auditorlar palatasının və beynəlxalq "Praxity" müstəqil audit alliansının üzvüdür.
AZ1025, Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti 37, "Dəmirçi Tover".
Tel: +99412 404 76 64; / Faks: +99412 404 76 95
Mobil: +994 51 404 76 64
Office@prac.az; www.prac.az

**Bayramov Vəli Oruc oğlu;** Azərbaycan Respublikası auditorlar palatasının üzvüdür; VÖEN 1500265852; AZ1078, Bakı şəhəri, M.Əlizadə küçəsi, 35, mənzil 1.; Tel.: 012/440-24-54. Mob.: 050/330-54-94; İcazənin dövlət qeydiyyatı və N-si SA/065

**2.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:**

Əvvəlki illəri audit edən sərbəst auditorun (Bayramov Vəli Oruc oğlu) müvafiq dövr üçün iş yükünün çox olması səbəbindən qərara aldınmışdır ki, yeni auditora müraciət olunsun.

## 3. Seçilmiş maliyyə məlumatı

**(Min Azərbaycan Manatı ilə)**

| Son üç maliyyə ili | 2015 | 2016 | 2017 (6 ay) |
|---|---|---|---|
| Gəlirlər | 4,425 | 28,505 | 31,423 |
| Mənfəət | | 3,158 | 3, 124 |
| Zərər | (5,875) | | |
| Cəmi öhdəliklər | 19,337 | 37,205 | 33,568 |
| Cəmi kapital | 3,973 | 7,131 | 25,011 |
| Pul vəsaitləri | 216 | 49 | 1,322 |

## 4. Emitent barədə məlumat

**4.1.1. Emitentin tam adı, təşkilati-hüquqi forması:** "MET-AK" Məhdud Məsuliyyətli Cəmiyyəti

**4.1.2. Emitentin dövlət qeydiyyatının məlumatı:** 10.01.1997-ci il tarixində dövlət qeydiyyatına alınmışdır, VÖEN: 1500018681.

4.1.3. **Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Heç bir dəyişiklik baş verməmişdir.

**4.1.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Hüquqi ünvanı: AZ1029 Bakı şəhəri Nərimanov rayonu, Böyük Şor (Daş Karxana) 15 A Dalan 2

Faktiki ünvanı: AZ1029 Bakı şəhəri Nərimanov rayonu, Böyük Şor (Daş Karxana) 15 A Dalan 2

Telefon: (+994 12) 447 99 58

Faks: (+994 12) 448 29 58

İnternet səhifəsi: www.metak.az

Elektron poçt ünvanı: info@metak.az

**4.1.5. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarın əsas investisiyaların təsviri (məbləği göstərilməklə):**

İnvestisiya məbləği 24,000,000 AZN. Bina tikintisi 2,610,000 AZN, avadanlıq 15,827,000 AZN, dövriyyə vəsaitləri 5,865,000 AZN.

**İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** Hal-hazırda konkret plan üzrə öhdəliklər mövcud deyildir, amma gələcəkdə lazım olarsa göstərilən mənbələrdən maliyyələşəcəkdir: Şəxsi kapitaldan – 2,600,000 AZN, Avropa Yenidən Qurma və İnkişaf Bankı – 16,000,000 AZN və Azərbaycan Respublikası Sahibkarlığa Yardım Milli fondu – 5,400,000 AZN.

**4.1.6. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**

Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-də Pay bazarı, Borc alətləri bazarı, Repo bazarı, Törəmə maliyyə alətləri bazarı mövcuddur.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 5. Emitentin biznesinin icmalı

**5.1.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:**

* Polad borular, təbəqələr, künclüklər, şvellerlər, ikitavrlar və fitinqlərin idxalı və satışı;
* Plastik boru və fitinqlərin istehsalı və satışı;
* Tikinti işkələlərin və dirəklərin istehsalı və satışı;
* Müxtəlif təyinatlı iri plastik konteynerlərin istehsalı və satışı;
* Qəlib istehsalı və satışı;
* Əlvan metalların təkrar emalı və satışı;
* Plastiklərin təkrar emalı;
* Kənd təsərrüfatı təyinatlı məmulatların istehsalı və satışı (taralar, beton dirəklər və s.)
* Bağ salma fəaliyyəti üzrə məsləhət xidməti və bağların sıfırdan yığılması;
* Sifarişə uyğun müxtəlif metal konstruksiyaların istehsalı;
* Plastik əsaslı kompozit xammalın istehsalı və satışı;
* Metal və plastik məmulatların texniki tərkibinin analizi.

**5.1.2. Təqdim olunmuş yeni məhsullar və xidmətlər barədə məlumat, onların inkişaf statusu:**
İri konteynerlər, kənd təsərrüfatı təyinatlı taralar istehsal olunur və ilkin olaraq 2,000,000 AZN-dən yuxarı satış həyata keçirilmişdir. Plastik əsaslı kompozit xammal istehsal olunur və hələlik müəssisənin öz tələbatını ödəmək üçün istifadə olunur. Sentyabrın 29-u 2017-ci il Balaxanı və oktyabrın 1-i 2017-ci ildə Neftçala sənaye məhəlləsində ölkə başçısının iştrakı ilə yeni zavodların açılışı olmuşdur. Viol (meyvə və tərəvəz yerləşdirmək üçün kağızdan altlıq) istehsalına 2018-ci ildə başlanacaq. Elektrik qaynaqlı boruların istehsalına da 2018-ci ilin 2-ci yarısında başlanacağı nəzərdə tutulur. Bunlardan əlavə polietilen boruların istehsalı 2018-ci il üçün planlaşdırılır .

**5.1.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri:**
Əsasən daxil bazarda rəqabət mövcuddur. Amma 2018-ci ildən Rusiya, Qazaxstan və Ukrayna bazarlarına daxil olmaq üçün aktiv işlər aparılır.

5.1.4. **Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırılması:**
"Met-Ak" müəssisəsi bazarda plastik boru və fittinq istehsalı üzrə lider mövqeyə malikdir. Çünki, bu fəaliyyətin əsas hissəsini (90 %-ni) qəliblər təşkil edir. Müvafiq qəlibləri müəssisənin özü istehsal etdiyinə görə bazarda daha ucuz və daha keyfiyyətli məhsulla təmsil oluna bilir və bazar konyukturunun dəyişməsinə tez reaksiya vermək mümkün olur. Rəqiblər isə həmin presformaları (qəlibləri) idxal etdiyinə görə müştərilərin tələbinə tez cavab verə bilmir və üstəlik həmin qəliblər baha başa gəldiyinə görə məhsulların qiyməti də qalxır. Bu səbəbdən rəqabətdə geri qalırlar. Həmçinin "Met-Ak" şirkətinin aqressiv reklam siyasətini reallaşdırması bazar mövqeyini möhkəm saxlamağa imkan verir.

Polad məmulatların idxalı və satışına gəldikdə isə müəssisə 1997-ci ildən bu fəaliyyətlə məşğuldur, bol çeşidə malikdir və bazarda kifayət qədər etibarlı təhcizatçı kimi tanınır.

## 6. Digər təşkilatlarda iştirak

**6.1. Emitentin digər hüquqi şəxslərdə iştirakının qısa təsviri:** "Met-Ak" MMC-nin heç bir hüquqi şəxsdə iştirakı mövcud deyildir.

**6.2. Emitentin daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:** Mövcud deyildir.

## 7. Tendensiyalar barədə məlumat

**7.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Müəssisənin ödəmə qabiliyyəti 2017-ci ilin ildə keçən ilin müvafiq dövrünə nisbətdə nəzərə çarpacaq dərəcədə yüksəlmişdir.

**7.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, öhdəliklər və ya hadisələr barədə məlumat:** 2018-ci ildən valyuta məzənnəsində kəskin dəyişikliyin olması müəssisənin fəaliyyətinə müəyyən qədər təsir edə bilər. Amma ki, kəskin neqativ dəyişikliyə cavab vermək üçün müəssisənin konkret əməli tədbirlər planı mövcuddur. Belə ki, müəssisə müəyyən nisbi xətalar nəzərə alınmaqla illik satış həcmini müəyyən edə bilir və planlayır. Dövriyyə kapitalının optimal idarə olunması ilə bağlı tədbirlərin mütəmadi olaraq yaxşılaşdırılması, qeyri-effektiv mal-material qalıqlarının əmələ gəlməsinin qarşısını alır.

## 8. Gəlir proqnozu

| Dövr (AZN) | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|
| Əməliyyat Gəlirləri | 18,722,925 | 29,506,802 | 35,179,181 | 40,068,177 |

**8.1. Emitent tərəfindən müəyyən edilən və proqnozun əsasını təşkil edən əsas fərziyyələr haqqında hesabat. Hesabatda emitentin idarə heyətinin təsir edə biləcəyi və həmçinin idarə heyətinin təsirindən kənarda olan amillər və fərziyyələr arasındakı fərq aydın şəkildə göstərilməlidir:**
Qeyd edilən proqnozu verməyə əsas verən başlıca fərziyyə, ölkədə kənd təsərrüfatının davamlı inkişafı ilə bağlı ölkə rəhbərliyinin əməli fəaliyyəti və bunun real sektorda hiss olunması (gömrük və vergi güzəştləri, yeni kənd təsərrüfatı müəssisələrinin yaradılması), müştərilərin istehsaldan bir neçə ay əvvəl sifarişlər verməsi, qeyd edilən sahələrdə boşluqların olması və s.

## 9. Emitentin idarəetmə və nəzarət orqanları

**9.1. Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:**

| Ad, soyadı, ata adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|
| Kərimov Alik Kainbəy oğlu | Təsisçi | Cəmiyyətdə ümumi yığıncağın keçirilməsi qayda və əsaslarını müəyyən edir; Ümumi yığıncağın Cəmiyyətin Nizamnaməsi ilə nəzərdə tutualn müstəsna səlahiyyətlərini müəyyən edir; |
| Kərimov Aydın Alik oğlu | Direktor | Cəmiyyətin qanuni təmsilçisi funksiyalarını həyata keçirməklə cəmiyyətin fəaliyyətinə cari rəhbərlik edir; cəmiyyətin adından qanunla qadağan edilməyən istənilən növ əqd və sazişlər bağlayır; işçilərin işə qəbul və işdən azad olunması barədə qərarları qəbul edir. Nizamnamə ilə nəzərdə tutulan, qanunla qadağan edilməyən digər fəaliyyəti həyata keçirir. |
| Əzizov Mübariz Səlimxan oğlu | İstehsalat direktoru | İstehsalat prosesinin Əsas fəaliyyət istiqamətlərini müəyyən edir, yeni texnologiyaların tətbiqi, istehsalatın rentabelliyinin artırılması istiqamətin öz tövhələrini verməklə, atılacaq addımlara dair qərarın qəbulunda iştirak edir. Daxili və xarici bazar tələbatının araşdırılması və istehsal gücünün tələbata uyğunlaşdrılması istiqamətində düzgün istehsal həcminin və istehsal alətinin seçilməsinin təmin edilməsinə qərarların qəbulu. |

| | | |
|---|---|---|
| Zülfüqarov Fuad Zülfüqar oğlu | Maliyyə direktoru | Cəmiyyətin mühasibat və uçot sisteminin təkminləşdirilməsi, mühasibat sisteminin beynəlxalq qaydalar əsasında təşkili, Cəmiyyətin maliyyə hesabatlarının şəffaflığının təmini məqsədilə daxili və xarici auditin təşkili. |

9.1.1. **Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Mövcud deyildir.

## 10. İdarə heyətinin işgüzar praktikası

10.1. **Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:** Mövcud deyil.

10.2. **Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə hesabat:** Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir.

## 11. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər

11.1. **Emitentin nizamnamə kapitalında 10 faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus payların sayı və nizamnamə kapitalında olan faiz nisbəti:** "Met-Ak" MMC-nin 100% nizamnamə kapitalı yeganə təsisçi olan Kərimov Alik Kainbəy oğluna məxsusdur.

11.2. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:** Yeganə təsisçi özünün mütəmaddi keçirilən yığıncağı və Direktorlar Şurası vasitəsilə emitentə nəzarəti həyata keçirir.

11.3. **Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mövcud deyil.

## 12. Emitentin maliyyə məlumatları

12.1. **Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları;** emissiya prospektinə əlavə edilir;

12.2. **Maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmışdır və aşağıdakıları özündə əks etdirməklə emissiya prospektinə əlavə edilir:**

12.2.1. **maliyyə vəziyyəti haqqında hesabatı**: emissiya prospektinə əlavə edilir;
12.2.2. **mənfəət və zərər haqqında hesabatı**: emissiya prospektinə əlavə edilir;
12.2.3. **kapitalda dəyişiklik haqqında hesabatı**: emissiya prospektinə əlavə edilir;
12.2.4. **nağd pul vəsaitlərinin hərəkəti haqqında hesabatı**: emissiya prospektinə əlavə edilir;

**12.3. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Yoxdur.

**12.4. Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla) :** Mövcud deyil.

**12.5. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:**
Müəssisənin satışları 2017-ci ildə 2016-cı ilə nisbətdə nəzərəçarpacaq dərəcədə artıb.

## 13. Emitent haqqında əlavə məlumatlar

**13.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, payların miqdarı, onların nominal dəyəri və növləri:** Ümumi nizamnamə kapitalı tərkibi pul məbləği; məbləği 12 364 010 AZN; Pay miqdarı 10 pay; Nominal dəyəri 1 236 401 AZN;

**13.2. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:** Nizamnamənin son redaksiyası 11.09.2017-ci il tarixində AR VN yanında Milli Gəlirlər Departmentinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən.

**13.2.1. Fəaliyyət və məqsədlərin təsviri: "Met-Ak" MMC** Azərbaycan Respublikasının qanunvericiliyi iə qadağan edilməyən müxtəlif fəaliyyət növləri ilə məşğuldur; Məqsədlər isə Sağlam iş mühitinin təmin olunması, şirkətin məhsullarının daxili və xarici bazarda satış mövqeyinin möhkəmləndirilməsi, bununla da Azərbaycan İqtisadiyyatına dəstək verilməsidir.

**13.2.2. İdarəetmə və nəzarət orqanlarının salahiyyətləri barədə müddəaların icmalı:**
Ümumi yığıncağın hüquq vəzifələri, o cümlədən, direktorlar Şurasının hüquq və vəzifələri AR Mülki Məcəlləsində nəzərdə tutulan müəddəalar çərçivəsində həyata keçirilir.

**13.3. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyildir.

# II. İstiqrazlar barədə məlumat

## 14. Əsas məlumat

**14.1. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toquşması barədə ətraflı məlumat:**

**Bakı Fond Birjası**

Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-də Pay bazarı, Borc alətləri bazarı, Repo bazarı, Törəmə maliyyə alətləri bazarı mövcuddur.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

### Mərkəzi Depozitar

Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsdir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:

- Bağlanılmış əqdlər üzrə klirinq və hesablaşmaların aparılması.

### Anderrayter

"Unicapital İnvestisiya Şirkəti" ASC 19 dekabr 2007-ci ildə yaranıb, təsisçisi və yeganə səhmdarı "Unibank" Kommersiya Bankı ASC-dir. Şirkət açıq səhmdar cəmiyyəti kimi yaradılmışdır və onun nizamnamə kapitalı 300 000.00 manat təşkil edir. 10 il ərzində Unicapital dəfələrlə fond bazarının peşəkar iştirakçıları reytinqində aparıcı yerləri tutub. 2008-ci ildən etibarən Unicapital Bakı Fond Birjasının təsisçilərindən biridir. 15 may 2015-ci il tarixində qiymətli kağızlar bazarında yeni qanun qüvvəyə mindikdən sonra, Unicapital 8 yanvar 2016-ci ildə investisiya xidmətlərinin göstərilməsi üçün
İSN/L-30 /2016, 087910 №-li müddətsiz lisenziya əldə edib.

**14.2.** Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur.

**14.3. İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ərtaflı məlumat:**

Hazırda müəssisənin likvidlik mövqeyi kifayət qədər sağlamdır. İstiqraz təklifinin əsas məqsədlərindən biri ağır şərtlərlə və baha təklif olunan yerli bank kreditlərinə alternativ yaratmaq, faiz xərclərini aşağı salmaq, rentabelliyi artırmaq və qiymətli kağızlar bazarının fəal iştrakçılarından birinə çevrilmək.

**14.4. Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək mümkün olmadığı təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin mənbələri və məbləği:**
Şəxsi kapitaldan – 2,600,000 AZN, Avropa Yenidən Qurma və İnkişaf Bankı – 16,000,000 AZN və Azərbaycan Respublikası Sahibkarlığa Yardım Milli fondu – 5,400,000 AZN.

**14.5. Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restruktuzasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:**

Mümkün variant var ki, istiqraz buraxılması vasitəsi banklardan müəssisə üçün əlverişsiz sayılan faizlərlə verilən kreditlər bağlansın.

## 15. İstiqrazlar barədə məlumat

**15.1. Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Qanun, MBNP-nın "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında "Qaydaları.

**15.2. İstiqrazların növü:** Faizli, təminatsız, sənədsiz, adlı istiqraz;

**15.3. Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə) :** 3 000 (üç min) ədəd, 1000 (bir min) AZN;

**15.4. İstiqrazların valyutası:** Azərbaycan manatı (AZN) ;

**15.5. İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:**
Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxs olub, Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.
Hüquqi ünvanı: AZ1000, Bakı şəh., Bül-Bül pr., 27;
Faktiki ünvanı: AZ1025, Bakı şəh., Babək pr., Ə.Quliyev küç., 11/31.

**15.6. Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Mövcud deyildir.

**15.7. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilməsi qaydası və onlara dair məhdudiyyətlər:**
_ **İstiqraz mülkiyyətçilərinin aşağıdakı hüquqları vardır:**
a) İstiqrazların tədavül müddətinin sonunda istiqrazın nominal dəyərini Emitentdən almaq;
b) İstiqrazın nominal dəyərindən illik 12 (on iki) faiz olmaqla istiqrazın tədavül müddəti ərzində faiz almaq;

c) Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

d) İstiqrazları əldə etmiş investorlara geri qaytarılma proseduru 15.14-cü maddədə əks olunmuşdur. Bunun üçün investor Emitentə 15 (on beş) gün öncədən yazılı müraciət təqdim etməlidir. İstiqrazlar Emitent tərəfindən geri alınan zaman, investorlara istiqrazların nominal dəyəri, yəni, 1 000 (bir min) manat, həmçinin istiqrazların geri satıldığı günədək hesablanmış amma investora ödənilməmiş faiz gəliri ödəniləcəkdir.

e) Azərbaycan Republikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**15.8. İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi** : illik 12 (on iki) faiz;

**15.9. İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazların ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 1 (bir) təqvim ili. İstiqrazlar üzrə ödənilməli olan faizlər buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən dövri olaraq hər 1 (bir) təqvim ayından bir ödəniləcəkdir.

**15.10. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı idia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**15.11. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi nəzərdə tutulmamışdır.

**15.12. Ödənişlər üzrə hesablaşma agentinin adı:** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.

**15.13. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Bu buraxılış daxilində emissiya edilən istiqrazlar təminatsız formada emissiya edilir.

**15.14. İstiqrazların geri satın alınmasının şərtləri: Yerləşdirilmiş isiqrazların geri satın alınması yerləşdirmənin başlandığı tarixdən etibarən hər 30 (otuz) gündən bir istiqrazların nominal dəyəri ilə aşağıda göstərilən qaydada həyata keçiriləcəkdir.**

- İlk 180 gün (VI ay) ərzində geri satın alınmaya təqdim edilən istiqrazlar Unibank KB ASC tərəfindən;

- 181-ci gündən 273-cu günə (VI-IX ay) kimi geri satın alınmaya təqdim edilən istiqrazların 50%-i Unibank KB ASC, 50%-i isə METAK MMC tərəfindən;

- 274-cü gündən 365-ci günə kimi (IX-XII ay) METAK MMC tərəfindən.

**15.15. Gəlirlik dərəcəsi və onun hesablanması qaydası.**

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF=(N*D*G/365)/100

Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir İstiqrazın nominal dəyəri (1.000 (bir min) AZN);

D- İstiqrazların illik gəlirlik dərəcəsi (12 (on iki)%);

G-istiqrazların faiz ödəniş dövrünün müddəti 1 (bir) təqvim ayı.

**15.16. İstqirazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** "MET-AK" MMC-nin Təsisçisinin 19.02.2018-ci il tarixli, 03/2018 saylı Qərarı.

**15.17. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** İstiqrazların əldə edilməsi üçün Emitentin Təsisçisinin emissiya haqqında müvafiq qərarında hər hansı qadağa nəzərdə tutulmamışdır. İstiqrazlar kütləvi təklif üsulu ilə yerləşdirilən zaman qanunvericiliyə uyğun olaraq istiqrazlara maraqlı şəxslər tərəfindən əldə ediləcəkdir.

**15.18. İstiqrazlar üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən verginin tutulması barədə emitentin öhdəliyi:** Qanunvericilikdə nəzərdə tutulan halda hesablaşma agenti istiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericiliklə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutur.

# 16. Təklifin şərtləri

**16.1. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:**

- **Yerləşdirmənin başlanma tarixi:** yeni emissiya ediləcək istiqrazlar Palata tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix BFB-nin və anderrayterin saytında investorlara açıqlanacaqdır.
- **Yerləşdirmənin başaçatma tarixi:** Hərrac qaydalarına uyğun olaraq BFB və anderrayter tərəfindən elan edilən müvafiq hərracın baş tutduğu gün.

**16.2. Təklifin qüvvədə olduğu müddət ərzində prospektdə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:**
Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 iş günü ərzində Palataya təqdim edilir. Emissiya prospektində edilmiş dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 7.1-ci maddəsi ilə müəyyən edilmiş vasitələrlə açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

**16.3. Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** Təklif "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 9-cu maddəsinə əsasən dayandırıla bilər.

**16.4. İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazların yerləşdirilməsi prosesində abunə yazılşı nəzərdə tutulmamışdır.

**16.5. İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası və şərtləri:**
İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac zamanı pul vəsaitləri investorlar tərəfindən Milli Depozit Mərkəzinin klirinq hesabına köçürülür və saxlanılır, həmin vəsaitlərin istifadəsinə yerləşdirmə başa çatdıqdan və MBNP tərəfindən emissiyanın yekunları haqqında hesabat təsdiq edildikdən sonra yol verilir. Mərkərzi depozitar istiqrazların dəyərinin investorlar tərəfindən müvafiq klirinq hesabına ödənilməsi haqqında məlumatları təsdiqlədikdən və BFB-də əqd bağlanıldıqdan sonrakı növbəti gün ərzində müvafiq istiqrazları emitentin hesabından silib investorların

depo hesablarına köçürür və emissiyanın yekunları haqqında hesabat təsdiq edilənədək həmin hesabı dondurur.

**16.6. İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların dəyərinin ödənilməsi köçürmə yolu ilə investisiya şirkəti vasitəsilə həyata keçirilir. Klirinq qaydalarına müvafiq olaraq, istiqrazları əldə etmək istəyən investorlar istiqrazların yerləşdirilməsi barədə məlumat açıqlandığı vaxtdan etibarən öz təsdiq edilmiş sifarişlərini investisiya şirkətinə təqdim edir və almaq istədiyi istiqrazların dəyərini Milli Depozit Mərkəzinin klirinq hesabına köçürür. Hərrac başa çatdıqdan sonra 1 iş günü ərzində investisiya şirkəti hərrac zamanı investor üçün aldığı istiqrazlar barədə rəsmi məlumatı (hesabatı) investora təqdim edir. Müştəri tərəfindən hesab üzrə sərəncam verildiyi andan investisiya şirkəti müştərinin "depo" hesabında mövcud olan və həmin sərəncamda göstərilən qiymətli kağızlar barədə məlumat almaq hüququna malikdir.

**16.7. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** emissiya ediləcək istiqrazlar həm fiziki həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

**16.8. İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** Hərracın keçirildiyi gün investorlara hərracın başlanması saatı elektron poçt vasitəsi ilə bildiriləcəkdir.

**16.9. İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirilməsi metodunu göstərməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat:** İstiqrazlar 1 000 (bir min) AZN qiymətinə təklif olunur.

**16.10. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

- əqdin məbləğinin 0,01%-i həcmində BFB komissiyası;
- investisiya şirkətinin komisyon haqqı:əqdin məbləğinin 0,05%-i həcmində;
- "depo" hesab açılması üçün 10 AZN;
- Klirinq hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci.

**16.11. İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı.**

İstiqrazlar "Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti tərəfindən öhdəlik götürmədən yerləşdiriləcəkdir.

"Unicapital İnvestisiya Şirkəti" ASC 08 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən verilmiş İSN/L-30 /2016, 087910 №-li lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

Ünvanı: Bakı şəhəri, Nəsimi rayonu, Əlövsət Quliyev küçəsi, ev 140 mənzil 13
VÖEN-i: 1401258741.
Telefon: + 994 (12) 541 33 33
Elektron poçt ünvanı: info@unicapital.az

Emitent Anderrayterlə bağlanılmış müqaviləyə əsasən əqdin məbləğinin 0.05%-i həcmində komissiya ödəyəcəkdir.

**16.12. Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı:** "MET-AK" MMC və "Unicapital İnvestisiya Şirkəti" ASC arasında anderrayter müqaviləsi qiymətli kağızlar buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra bağlanacaqdır.

# 17. Ticarətə buraxılma və onun tənzimlənməsi

**17.1. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar haqqında məlumat və ticarətə buraxılma şərtləri:**

İstiqrazların ilkin yerləşdirilməsi, listinqi və tədavülü Bakı Fond Birjasında aparılacaqdır. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə BFB-yə Emitent tərəfindən müraciət istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

**17.2. Market meyker(lər) barədə məlumat:** Emitent tərəfindən gələcəkdə istiqrazların təkrar bazarda tədavülü üçün prosesə market meyker(lər) cəlb edilə bilər.

# METAK MMC

**31 dekabr 2015-cı il tarixinə**

**Beynəlxalq Mühasibat Uçotu Standartlarına Uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorun Rəyi**

**METAK MMC**

**MÜNDƏRİCAT**


MÜSTƏQİL AUDİTORUN RƏYİ ........................................ 3

MALİYYƏ HESABATLARI

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT ........................................ 4

MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT ........................................ 5

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT ........................................ 6

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI ........................................ 7

MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR ........................................ 9-19

BAYRAMOV VƏLİ ORUC OĞLU
AUDİTORLAR PALATASI

# AUDİTOR RƏYİ
# AUDITOR OPINION

SERİYA BV № - 072717

---

## "METAK" Məhdud Məsuliyyətli Cəmiyyətin Rəhbərliyinə :

***Maliyyə hesabatları haqqında hesabat***

Mən, sərbəst auditor Vəli Oruc oğlu Bayramov "METAK" Məhdud Məsuliyyətli Cəmiyyətin 31 dekabr 2015-ci il tarixinə bitən il üzrə hazırlanmış maliyyə vəziyyəti haqqında mənfəət və zərər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat uçotu prinsiplərinin icmalından və digər izahlı qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

***Rəhbərliyin maliyyə hesabatları ilə bağlı məsuliyyəti*** - Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartları əsasında hazırlanmasına və düzgün təqdimatına cavabdehdir. Rəhbərliyin məsuliyyət sahəsinə aşağıdakı vəzifələr daxildir: maliyyə hesabatlarının saxtalaşdırılmadan və ciddi təhriflərə yol vermədən hazırlanması və düzgün təqdimatı üçün daxili nəzarət sisteminin planlaşdırılması, tətbiqi və aparılması; müvafiq mühasibat uçotu normalarının seçilməsi və tətbiqi; və şəraitə müvafiq mühasibat uçotu ehtimallarının hazırlanması.

***Auditorun məsuliyyəti*** - Mənim vəzifəm apardığım audit əsasında maliyyə hesabatları haqqında rəy bildirməkdir. Mən auditi Beynəlxalq Audit Standartlarına uyğun olaraq həyata keçirdim. Həmin standartlar tələb edir ki, etik tələbləri təmin etməklə yoxlamanın aparılmasını elə planlaşdıraq və həyata keçirək ki, maliyyə hesabatlarında əks olunmuş məlumatlarda əhəmiyyətli səhvlərin olmadığın kifayət qədər əmin olaq.

Audit zamanı maliyyə hesabatlarında əks olunan məbləğ və açıqlamaları təsdiq edən audit sübutlarının əldə edilməsi üçün proseduralar yerinə yetirilir. Bu proseduralar auditorun mühakiməsindən, o cümlədən maliyyə hesabatlarında səhv və saxtakarlıqla bağlı ciddi təhrif risklərinin qiymətləndirilməsindən asılı olaraq seçilir. Həmin riskləri qiymətl əndirərkən, auditor şəraitə münasib olan audit proseduralarının planlaşdırılması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi ilə bağlı olan daxili nəzarət sistemini nəzərdən keçirir, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin səmərəliliyi barədə rəy bildirmək məqsədini qarşısına qoymur. Audit yoxlamasına həmçinin rəhbərlik tərəfindən tətbiq edilmiş mühasibat uçotu siyasətinin və verilən mühasibat ehtimallarının müvafiqliyinin, eləcə də maliyyə hesabatlarının ümumi təqdimat şəklinin qiymətləndirilməsi daxildir.

Fikrimcə, apardığım audit nəticəsində toplanan əsaslar auditor rəyi vermək üçün kifayət qədərdir və məqsədə müvafiqdir.

***Rəy*** - Hesab edirəm ki, bu maliyyə hesabatları "METAK" Məhdud Məsuliyyətli Cəmiyyətin 31 dekabr 2015-ci il tarixinə bitən il üzrə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli hallarda düzgün və Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun əks etdirir. Azərbaycan Respublikası Auditorlar Palatasının 26 dekabr 2016-ci il tarixli SA /065 saylı Icazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov Müstəqil auditor rəyini 16 noyabr 2017-ci il tarixində tərtib etmişdir.

**Vəli Oruc oğlu Bayramov**

**METAK MMC**

**MALİYYƏ VƏZİYYƏTİNƏ DAİR HESABAT**
**31 DEKABR 2015-CI İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ**
*(Min Azərbaycan Manatı ilə)*

| **AKTİVLƏR** | **2015** | **Qeyd** | **2014** |
|---|---|---|---|
| Uzunmüddətli aktivlər | | | |
| Binalar, Qurğular və Avadanlıqlar | 5,125 | 4 | 4,180 |
| Qeyri maddi aktivlər | 8 | | 90 |
| Digər uzunmüddətli aktivlər | 2 | | 199 |
| **Cəmi uzunmüddətli aktivlər** | **5,135** | | **4,469** |
| **Cari Aktivlər** | | | |
| Mal-material Ehtiyyatları | 9,310 | 5 | 6,687 |
| Hazır Məhsul | 5,055 | 5 | 3,323 |
| Debitor borcları | 269 | 6 | 848 |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 216 | 7 | 686 |
| Vergi hesabı üzrə artıq ödəmə | 1,915 | 6 | 1,134 |
| Verilmiş Avanslar Üzrə Hesablaşmalar | 1,410 | 6 | 2,977 |
| **Cəmi cari aktivlər** | **18,175** | | **15,655** |
| **CƏMİ AKTİVLƏR** | **23,310** | | **20,124** |
| **KAPİTAL** | | | |
| Cari İlin Mənfəəti | (5,875) | | 233 |
| Səhmdarlarla hesablaşmalar | 11,190 | | 11,190 |
| Nizamnamə Kapitalı | - | | - |
| Bölüşdürülməmiş Mənfəət | (1,342) | | (1,575) |
| Müəssisənin Səhmdarlarına aid Kapital | 3,973 | | 9,848 |
| **CƏMİ SƏHMDAR KAPİTALI** | **3,973** | | **9,848** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Cari öhdəliklər | | | |
| Qısa müddətli kreditlər | 8,856 | 9 | 3,923 |
| Kreditor borcları | 1,165 | 10 | 4,608 |
| Əmək Haqqı Borcları | 63 | 10 | 43 |
| Digər qısa müddətli öhdəliklər | 9,243 | 10 | 1,454 |
| Alınmış avanslar üzrə hesablaşmalar | 10 | 10 | 248 |
| **Cəmi cari öhdəliklər** | **19,337** | | **10,276** |
| Uzunmüddətli öhdəliklər | - | | - |
| Uzun müddətli bank kreditləri və borclar | - | | - |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **19,337** | | **10,276** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **23,310** | | **20,124** |

01 İyun 2016-cı il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Aydın Kərimov
İcraçı Direktor

Fuad Zülfüqarov
Maliyyə Direktoru

**METAK MMC**

**MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2015-CI İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ**
*(Min Azərbaycan Manatı ilə)*

| | 2015 | Qeyd | 2014 |
|---|---|---|---|
| Məhsul satışından gəlir | 4,425 | 11 | 4,669 |
| Satılmış məhsulun maya dəyəri | (3,386) | 12 | (1,124) |
| **Ümumi mənfəət** | **1,039** | | **3,545** |
| Ümumi və inzibati xərclər | (3,773) | 13 | (2,644) |
| **Əməliyyat gəliri** | **(2,734)** | | **901** |
| Maliyyə xərcləri | (981) | 14 | (669) |
| Məzənnə fərqi üzrə gəlir (zərər) | (2,160) | | - |
| **Mənfəət vergisinə qədər olan mənfəət** | **(5,875)** | | **232** |
| Mənfəət vergisi xərci | - | | - |
| **İl üzrə mənfəət** | **(5,875)** | | **232** |
| Digər məcmu gəlirlər | - | | - |
| **İl üzrə cəmi məcmu gəlir** | **(5,875)** | | **232** |

01 İyun 2016-cı il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Aydın Kərimov
İcraçı Direktor

Fuad Zülfüqarov
Maliyyə Direktoru

**METAK MMC**

## SƏHMDAR KAPİTALIDA BAŞ VERƏN DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2015-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ

| | Ödənilmiş kapital | Səhmdarlarla hesablaşmalar | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2014-cü il tarixinə qalıq** | - | **11,190** | **(1,342)** | **9,848** |
| Səhmdar kapitalında artma | - | - | - | - |
| 2015-ci il üzrə cəmi məcmu gəlir | - | - | (5,875) | **(5,875)** |
| **31 dekabr 2015-ci il tarixinə qalıq** | - | **11,190** | **(7,217)** | **3,973** |

01 İyun 2016-cı il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Aydın Kərimov
İcraçı Direktor

Fuad Zülfüqarov
Maliyyə Direktoru

**METAK**

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2015-Ci İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ

*(Min Azərbaycan Manatı ilə)*

| | 2015 |
|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | |
| Vergidən əvvəlki mənfəət | (5,875) |
| Düzəlişlər: | |
| Mal-materialın silinməsi | 335 |
| Binalar, qurğular və avadanlıqlar üzrə amortizasiya xərcləri | 771 |
| Xarici valyuta əməliyyatları üzrə kurs fərqlərindən mənfəət | 2,160 |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | **(2,609)** |
| Əməliyyat aktiv və passivlərində dəyişikliklər | |
| Debitor borclarda xalis (artım)/azalma | 579 |
| Mal-material ehtiyatlarında xalis (artım)/azalma | (4,355) |
| Kreditor borclarda xalis artım/(azalma) | (3,443) |
| Digər öhdəliklərdə xalis artım/azalma | 7,571 |
| Dövriyyə kapitalında dəyişikliklər | |
| Ödənilmiş mənfəət vergisi | - |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **(2,257)** |
| İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin | |
| Bina, Qurğu və Avadanlıqların alınması | (1,068) |
| Qeyri maddi aktivlərin alınması | 82 |
| Əsas vəsaitlərin satışından gəlir | - |
| **İnvestisiya fəaliyyətlərinə yönəlmiş xalis pul vəsaitləri** | **(986)** |
| Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını | |
| Kapitalın artırılması | - |
| Digər borc götürülmüş vəsaitlərdən daxilolmalar | 4,933 |
| Borc götürülmüş digər vəsaitlərin qaytarılması | |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | 4,933 |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | (2,160) |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma/(azalma)** | **(470)** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **686** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **216** |

01 İyun 2016-cı il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Aydın Kərimov
İcraçı Direktor

Fuad Zülfüqarov
Maliyyə Direktoru

**MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR**
**31 DEKABR 2015-CI İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ**
*(Min Azərbaycan Manatı ilə)*

## 1. Müəssisə və Onun Əsas Fəaliyyəti

"Metak" Məhdud Məsuliyyətli Cəmiyyəti ("Müəssisə") 1997-ci ildə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən təsis edilmişdir. Müəssisə tikinti-montaj və istehsal fəaliyyətləri ilə məşğul olur.
"METAK" MMC –nin səhmlərinin 100% -i Alik Kərimovun payına düşür və müəssisəyə yekun nəzarət ona məxsusdur.
Müəssisənin rəsmi qeydiyyat ünvanı Nərimanov ray., Böyükşor küç.2,Dalan 2a, Bakı şəhəri, Azərbaycan Respublikası. 31 dekabr 2015-cı il tarixinə müvafiq olaraq 350 işçidən ibarətdir.

## 2. Əməliyyat Mühiti

Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər, o cümlədən digər ölkələrdə sərbəst dönərli olmayan valyuta, xarici valyuta əməliyyatları üzrə ciddi nəzarət və nisbətən yüksək inflyasiya səviyyəsi mövcuddur. Həmin xüsusiyyətlərə aşağıdakılar daxil olmaqla, lakin bunlarla məhdudlaşmamaqla, digər ölkələrdə sərbəst dönərli olmayan valyuta, yüksək inflyasiya səviyyəsi və dövlət və özəl sektorda borc və pay qiymətli kağızları bazarında aşağı likvidlik səviyyəsi daxildir.

Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyində tez-tez müxtəlif şərhlər və dəyişikliklər baş verir. Azərbaycan Respublikasında iqtisadi inkişafın gələcək perspektivləri Hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və monetar islahatların effektivliyindən, eləcə də hüquqi, normativ və siyasi hadisələrin gedişatından xeyli dərəcədə asılıdır.

***Qlobal və Azərbaycanın maliyyə bazarlarındakı son qeyri-sabitlik.*** 2007-ci ilin ortalarında yaranmış qlobal likvidliyin kəskin surətdə azalması ilə əlaqədar olaraq yaranmış qlobal maliyyə və iqtisadi böhran kapital bazarlarında maliyyələşdirmə səviyyəsinin aşağı düşməsinə, bank sektoru və iqtisadiyyatın bütün sahələrində likvidlik səviyyəsinin azalmasına və bəzən banklararası kredit dərəcələrinin artmasına və fond və valyuta bazarlarında çox yüksək dəyişkənliyə səbəb olmuşdur. Qlobal maliyyə bazarlarında baş verən qeyri-müəyyənliklər həmçinin Amerika Birləşmiş Ştatları, Qərbi Avropa və Rusiya və digər ölkələrdə bankların və digər təşkilatların müflisləşməsinə gətirib çıxarmışdır. Qlobal maliyyə böhranının tam təsirini proqnozlaşdırmaq və ya ona qarşı tədbirlər görmək çətinlik doğurur.

Azərbaycanla bərabər bir çox ölkələr son zamanlar maliyyə bazarında baş verən irəliyişləri qeyd etmişdirlər, gələcəkdə qiymətlərin enməsi baş verə bilər və dövlət dəstəyi zəruri ola bilər. Əksinə dəyişikliklər qlobal maliyyə sistemindəki risklərdən, həmçinin kredit bazarındakı sıxılmalar və yaxud neft və qaz qiymətlərinin inkar edilməsi, bir çox ölkələrin o cümlədən Azərbaycanın iqtisadiyyatını zəyifldə və yaxud ağır zərbələr vura bilər.

Rəhbərlik, mövcud şəraitdə Müəssisənin fasiləsiz fəaliyyətini və inkişafını təmin etmək üçün bütün lazımi tədbirlərin görüldüyünü hesab edir.

***Maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri:*** Müəssisənin hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları ("BMUS") əsasında hazırlanmışdır. Maliyyə hesabatlarının hazırlanmasında istifadə olunmuş əsas mühasibat qaydaları aşağıdakılardır. Əgər başqa qaydalar göstərilməyibsə, bu qaydalar davamlı olaraq hesabatın bütün hissələrinə aid edilmişdir.

## MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR
## 31 DEKABR 2015-CI İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ
*(Min Azərbaycan Manatı ilə)*

### 3. Əsas Uçot Prinsiplərinin Xülasəsi

***Maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri:*** Müəssisənin hazırkı maliyyə hesabatları Milli Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Milli Mühasibat Uçotu Standartları ("BMUS") əsasında hazırlanmışdır. Maliyyə hesabatlarının hazırlanmasında istifadə olunmuş əsas mühasibat qaydaları aşağıdakılardır. Əgər başqa qaydalar göstərilməyibsə, bu qaydalar davamlı olaraq hesabatın bütün hissələrinə aid edilmişdir.

***Əməliyyat valyutası.*** Hazırkı maliyyə hesabatlarındakı məbləğlər min Azərbaycan Manatı ilə ("AZN") əks olunmuşdur. Azərbaycan Manatı Azərbaycan Respublikasının rəsmi valyutasıdır.

31 dekabr 2015-cı il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan əsas valyuta məzənnələri: 1 ABŞ dolları = 1.5594 AZN (31 dekabr 2014: 1 ABŞ dolları = 0.7844 AZN).

***Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları.*** Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

Ədalətli dəyər müstəqil şəkildə fəaliyyət göstərən yaxşı məlumatlandırılmış müstəqil tərəflər arasında əməliyyatın ümumi şərtlər əsasında həyata keçirildiyi zaman aktivin mübadilə edilə bildiyi və ya öhdəliyin yerinə yetirildiyi məbləği təşkil edir. Ədalətli dəyər fəal bazarda alınıb satılan maliyyə aktivləri üzrə cari tələb qiymətini və maliyyə öhdəlikləri üzrə cari təklif qiymətini əks etdirir. Bazar riskləri qarşılıqlı şəkildə əvəzləşdirilən aktiv və öhdəliklər ilə əlaqədar, Müəssisə qarşılıqlı surətdə əvəzləşdirilən risklər üzrə ədalətli dəyər göstəricilərinin müəyyən edilməsi üçün orta bazar qiymətlərindən istifadə edə bilər və xalis açıq mövqeyə müvafiq tələb və təklif qiyməti tətbiq edə bilər. Maliyyə aləti fəal bazarda o zaman sərbəst surətdə alınıb satıla bilən aktivlər kimi qəbul edilir ki, onların qiymətləri haqqında məlumat fond birjasında və ya digər maliyyə təşkilatından sərbəst və müntəzəm şəkildə əldə edilə bilsin və bu zaman həmin qiymətlər könüllü şəkildə bazar şərtləri çərçivəsində həyata keçirilən real və müntəzəm əməliyyatları əks etdirsin.

Bazar qiymətləri mövcud olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün diskont edilmiş pul vəsaitlərinin hərəkəti modeli, könüllü şəkildə həyata keçirilən ən son əməliyyatlar haqqında məlumata əsaslanan modellər kimi qiymətləndirmə üsulları, eləcə də investisiya qoyulan müəssisələr haqqında maliyyə məlumatlarının təhlili istifadə edilir. Qiymətləndirmə üsulları müşahidə edilə bilən bazar məlumatları ilə dəstəklənməyən fərziyyələrin istifadə olunmasını tələb edə bilər. Bu fərziyyələrin hər hansı birinin mümkün alternativ variantla əvəz edilməsi nəticəsində mənfəət, gəlir, aktiv və passivlərin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb olacaq hallar barədə məlumat hazırkı maliyyə hesabatlarında açıqlanır.

İlkin dəyər alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitlərini və ya onların ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir. İlkin dəyərlə qiymətləndirmə yalnız bazar qiymətləri olmayan və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən pay alətlərindəki investisiyalara, eləcə də açıq bazarda kotirovkası olmayan və pay alətləri ilə ödənilməli və onlara bağlı olan derivativlərə tətbiq edilir.
Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir.

**MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR**
**31 DEKABR 2015-CI İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ**
*(Min Azərbaycan Manatı ilə)*

Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri maliyyə xərclərinə daxil edilmir.

Amortizasiya olunmuş maya dəyəri əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və müvafiq aktiv və passivlərin balans dəyərinə daxil edilir.

*Effektiv faiz metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit yayılımını əks etdirən mükafatlar və ya diskont, yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir (gəlir və xərclərin uçotu siyasətinə baxın).

***Əsas vəsaitlər.*** Əsas vəsaitlər, yığılmış amortizasiyanı və tələb olunduqda dəyərsizləşmə üzrə ehtiyatı çıxmaqla, ilkin dəyərdə qeydə alınır.Satışdan yaranan gəlir və zərər, gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və zərərdə əks etdirlir.

***Amortizasiya.*** Torpaq üçün amortizasiya hesablanmır. Digər əsas vəsaitlər üzrə amortizasiya düz xətt metoduna, yəni əsas vəsaitlərin aşağıda göstərilən təxmini faydalı xidmət müddəti ərzində aktivlərin ilkin dəyərini və ya yenidən qiymətləndirilmiş dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır:

| | İllər üzrə faydalı ömür |
|---|---|
| Binalar | 15 il |
| Bina və avadanlıqlar | 4 – 5 il |
| Nəqliyyat vasitələri | 4 – 5 il |
| Mebel, qurğular və sair | 4 il |
| Kompyuter və rabitə avadanlıqları | 4 il |
| Digər | 4 – 5 il |

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Müəssisənin həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir.

Aktivlərin qalıq dəyərləri və faydalı xidmət müddətləri lazım olduqda hesabat dövrünün sonunda nəzərdən keçirilir və dəqiqləşdirilir.

***Əməliyyat lizinqi.*** Müəssisə lizinqalan qismində çıxış etdikdə və lizinq obyektlərinin mülkiyyət hüququ ilə əlaqədar risk və gəlirlər lizinqverən tərəfindən Müəssisəyə ötürülmədikdə, əməliyyat lizinqi müqavilələri üzrə cəmi ödənişlər lizinqin müddəti ərzində düz xətt metoduna əsasən mənfəət və zərərə aid edilir. Lizinq müddəti o vaxt uzunmüddətli və ya ləğv edilməmiş sayılır ki, icarəyə götürənlə əvvəlcədən müqaviləyə həmin icarənin daimi icarəyə götürüləcəyi barədə əlavə bənd daxil edilir və icarəyə götürənin də bu bəndə əməl edəcəyi əvvəlcədən bilinir.

***Qeyri-maddi aktivlər.*** Müəssisənin bütün qeyri-maddi aktivləri qudvildən başqa, müəyyən faydalı xidmət müddətinə malik olmaqla əsasən kapitallaşdırılmış proqram təminatından, patentlərdən, ticarət nişanlarından və lisenziyalardan ibarətdir.Əldə edilmiş proqram təminatı lisenziyaları, patentlər və ticarət nişanları onların alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır.

***Mənfəət vergisi.*** Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş müvafiq qanunvericiliyinə uyğun olaraq göstərilmişdir Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə bilavasitə kapitalda qeydə alınan əməliyyatlar istisna olmaqla, məcmu gəlirlər haqqında hesabatda qeydə alınır.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Mənfəət vergisindən başqa digər vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və passivlərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədilə onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. Təxirə salınmış vergi qalıqları, balans tarixinə qüvvədə olan vergi dərəcələrinə əsasən müvafiq təxirə salınmış mənfəət vergisi öhdəliyi aktivi müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi aktivi və ya öhdəliyi ancaq bir müəssisə daxilində əvəzləşdirilə bilər. Təxirə salınmış vergi aktivi müvəqqəti fərqlərdən yaranan və eləcə də keçmiş illərdən gələn zərərdən yaranmış olan vergi aktivi ancaq o vaxt istifadə edilə və ya tanına bilər ki, gələcək illərdə müəssisənin gəlir əldə edəcəyi guman edilir.

Təxirə salınmış vergi aktivləri mövcud fərqlərin gələcək vergi mənfəətindən tutulması mümkün olacağı halda tanınır.

Təxirə salınmış mənfəət vergisi müvəqqəti fərqlərin bərpa vaxtına Müəssisə tərəfindən nəzarət olunması və müvəqqəti fərqlərin yaxın gələcəkdə dəyişilməsi ehtimalının mümkünlüyu istisna olmaqla şərik və törəmə müəssisələrə qoyulan investisiyalardan irəli gələn müvəqqəti fəqlərdən təmin olunur.

Təxirə salınmış mənfəət vergisi tamamilə tanınma və aktivlərin silinməsi öhdəliyinin təminatının sonrakı qiymətləndirilməsindən irəli gələn və mülkiyyət, tikili və avadanlıqların dəyəri ilə bağlı düzəlişlərdən əmələ gələn müvəqqəti fərqlər hesabına təmin olunur.

**MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR**
**31 DEKABR 2015-CI İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ**
*(Min Azərbaycan Manatı ilə)*

***Mal-material ehtiyatları.*** Mal-material ehtiyatları maya dəyəri ilə xalis satış dəyərindən ən aşağı olan dəyərdə qeydə alınır. Mal-material ehtiyatlarının maya dəyəri orta çəki metodu ilə müəyyən edilir. Hazır məhsul və başa çatdırılmamış tikinti işlərinin maya dəyərinə borc vəsaitləri üzrə xərclər istisna olmaqla, xammal, birbaşa işçi qüvvəsi, digər birbaşa xərclər və müvafiq istehsal xərcləri (normal iş həcminə əsasən) daxildir. Xalis satış dəyəri işin başa çatdırılma və satış xərcləri çıxılmaqla, fəaliyyətin adi gedişində təxmin edilən satış qiymətidir.

***Debitor borcları.*** Debitor borcları effektiv faiz metoduna əsasən amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

***Qabaqcadan ödənişlər.*** Qabaqcadan ödənişlər dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla maya dəyərində uçota alınır. Qabaqcadan ödənişə aid olan mal və xidmətlərin bir ildən sonra əldə edilməsi gözlənildikdə və ya qabaqcadan ödəniş ilkin uçot zamanı uzunmüddətli aktiv kimi təsnifləşdirilən aktivə aid olduqda, qabaqcadan ödəniş uzunmüddətli aktiv kimi təsnifləşdirilir. Aktivlərin alınması üçün qabaqcadan ödənişlər, Müəssisənin həmin aktiv üzrə nəzarəti əldə etdiyi halda və həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Müəssisəyə daxil olması ehtimal edildikdə, həmin aktivin balans dəyərinə köçürülür. Digər qabaqcadan ödənişlər, qabaqcadan ödənişlərə aid olan mal və xidmətlər əldə edildikdə mənfəət və zərər hesabatına silinir. Qabaqcadan ödənişlərə aid olan aktivlər, mal və xidmətlərin əldə edilməyəcəyinə dair əlamət mövcud olduqda, qabaqcadan ödənişin balans dəyəri silinir və müvafiq dəyərsizləşmə üzrə zərər il üzrə mənfəət və zərər hesabatında qeydə alınır.

***Pul vəsaitləri və onların ekvivalentləri.*** Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul, bank hesablarındakı tələb edilənədək və ilkin ödəmə müddəti üç ay və ya az olan digər qısamüddətli və yüksək likvidli investisiyalar daxildir.

***Məhdudiyyət qoyulmuş pul vəsaitləri.*** Məhdudiyyət qoyulmuş pul vəsaitləri və onların ekvivalentlərində ayrı ayrılıqda əks etdirilir. Pul vəsaitləri hərəkəti haqqında hesabatda məhdudiyyət qoyulmuş balans pul vəsaitləri və onların ekvivalentlərinin tərkibində əks etdirilmir.

***Kreditor borcları.*** Kreditor borcları ilkin olaraq ədalətli dəyərdə uçota alınır və sonradan effektiv faiz metoduna əsasən amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

***Borc vəsaitləri.*** Bütün borc vəsaitləri ilkin olaraq borc vəsaitləri ilə əlaqədar olaraq qiymətli kağızların emissiyasında əldə edilmiş xalis gəlirin ədalətli dəyərində tanınır. Borc vəsaitləri effektiv faiz metodunu istifadə etməklə amortizasiya dəyəri ilə hesablanır. Əmlak müəssisə və avadanlıqların tikintisinə görə alınmış borc vəsaitləri üzrə faiz xərcləri aktivlərin aidiyyatı üzrə istifadəsi üçün hazırlanması və tamamlanmasına sərf olunan zaman müddətində kapitallaşdırılır. Bütün digər borc xərcləri xərcə silinir.

***Əlavə dəyər vergisi.*** Vergi müfəttişləri alış və satışlar üzrə əlavə dəyər vergisinin (ƏDV) netto əsasında ödənməsinə icazə verirlər.

*ƏDV öhdəliyi:* ƏDV öhdəliyinə balans hesabatı tarixində baş vermiş alışlar üzrə hesablanmış, müştərilərdən alınacaqlardan tutulub vergi müfəttişlərinə ödənilən satışlardan daxil olunan ƏDV aiddir.

Əlavə olaraq balans hesabatı tarixinə aid olmayan satışlar üzrə də ƏDV öhdəliyi (ertələnmiş ƏDV) yaranır. Alınacaqların amortizasiyası üçün ehtiyyatlar hesablanıldıqda köhnəlmə xərci lazimi yerlərdə ƏDV daxil edilməklə xalis debitor borcları üzrə hesablanır. Ertələnmiş ƏDV öhdəliyi debitorun vergi ohdəliklərindən azad edilməsinədək saxlanılır.

*Bərpa olunan ƏDV:* Bərpa olunan ƏDV balans hesabatı tarixindən kənarda baş verən alışlara aiddir. Bərpa



olunan ƏDV alışlar üçün ödəniş edildikdən sonra satışdan daxil olan ƏDV-dən tutulur.

***Maliyyə lizinqi.*** Maliyyə lizinqinin başlanğıcından Müəssisə lizinq verən tərəf qismində çıxış etdikdə lizinq ödənişlərin hazırki dəyəri digər aktivlərin daxilində hesablanır. Lizinq gəlirləri xalis effektiv gəlir metodu əsasında hesablanır.

Lizinqin başlanğıcı lizinq müqaviləsi bağlandığı və ya daha əvvəl baş verdiyi təqdirdə öhdəliyin yarandığı tarix qəbul olunur. Bu anlayışın məqsədlərinə uyğun olaraq öhdəlik yazılı olmalı, əməliyyatda marağı olan şəxslər tərəfindən imzalanmalı və əməliyyatın əsas şərtlərini müəyyən etməlidir.

Lizinq götürən şəxs tərəfindən edilmiş hər hansı bir avans ödənişi lizinqə goyulmuş xalis investisiyanı azaldır.

Lizinqdən maliyyə gəlirləri mənfəət hesabatında digər əməliyyatdan gəlirlər bölməsində qeyd edilir.

Köhnəlmə zamanı lizinqə goyulmuş xalis investisiya üçün ehtiyat ayırmaları hesablanır. Maliyyə lizinqi onun hal-hazırki dəyərinin başlanğıc dəyərindən az olduğu halda köhnəlmə baş vermiş hesab olunur. Köhnəlmədən itkilərin məbləği aktivlərin hazırki dəyəri ilə alınacaq maliyyə lizinqinin orijinal effektiv faizlər dərəcələrinə görə hesablanmış gözlənilən gələcək maliyyə axınının hazırki dəyəri arasındaki fərq kimi hesablanır.

***Gəlirlərin tanınması.*** Gəlirlər iqtisadi mənfəətin müəssisəyə axacağı və gəlirin ölçülə biləcəyi dərəcədə tanınır. Gəlirlər endirimlərdən, geri qaytarma və əlavə dəyər vergisindən azad şəkildə əks olunur. Gəlirlər tanınmamışdan əvvəl aşağıdakı xüsusi kriteriyalara əməl olunmalıdır:

*Tikinti müqaviləsi öhdəlikləri*

Müqavilə gəlir və dəyəri müvafiq müqavilənin nəticəsi əminliklə ölçülə bildikdə gəlir və xərclər kimi tanınır. Tamamlanma faizi metodu iş inkişaf etdikcə ilin sonuna kimi sərf edilmiş real xərclərin müqavilədə göstərilmiş layihənin gözlənilən dəyərinə nisbəti şəklində hesablanan işin tamamlanma payına əsasən müqavilə gəlirlərinin müqavilə xərcləri ilə tutuşdurularaq müqavilə üzrə xərclərin tanınması üçün istifadə olunur.

Dəyər və müqavilə haqqının cəmindən ibarət olan gəlir meydana çıxan xərclər və il ərzində qazanılmış müqavilə haqqının faizinə cəmi əsasında tanınır. Başqalarının tikinti öhdəliklərini Idarəetmə, nəzarət və ya koordinasiya Müqavilələri yalnız gəlir haqqına miqdarında tanınır.

Müqavilə xərclərinə bütün material və əmək haqqı xərcləri və dolayı əmək, təchizatçı, alətlər, köhnəlmə və amortizasiya xərcləri kimi müqavilə icrasına aid dolayı xərclər aiddir. Satış, ümumi və inzibati xərclər yarandığı anda mənfəət haqda hesabata daxil edilir. Natamam müqavilələr üzrə gözlənilən itkilər üzrə ehtiyat ayırmaları belə itkilər aşkar olunduğu dövrlərdə tam şəkildə ayrılır. Müqavilə cərimələri üzrə ehtiyatlar və yekun müqavilə razılığı daxil olmaqla iş icrası, iş şəraiti və gözlənilən gəlirlilikdə dəyişikliklər xərclər və

gəlirlərdə dəyişikliklərlə nəticələnə bilər və dəyişiklik edilən tarixdə tanınır. Mənfəət stimulları reallaşdırılması məqsədyönlü olduğu halda gəlirlərə daxil edilir.

Natamam müqavilələr üzrə hesabdan artıq olan xərclər və gözlənilən gəlirlər gəlirlərin hesablanmış məbləğdən artıq tanınmasını təmsil edir. Natamam müqavilələr üzrə xərclər və gözlənilən gəlirdən artıq hesab xərcləri və gözlənilən gəlirdən artıq olan hesabı təmsil edir.

**MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR**
**31 DEKABR 2015-CI İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ**
*(Min Azərbaycan Manatı ilə)*

***Əvəzləşdirilmə.*** Maliyyə aktiv və passivlərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi, qeydə alınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq, eləcə də əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək passivi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər.

***Dividendlər.*** Dividendlər elan edildikləri dövrdə kapitalda əks etdirilir. Hesabat dövrünün başa çatmasından sonra, lakin maliyyə hesabatlarının imzalanmasından əvvəl elan edilmiş dividendlər haqqında məlumat "hesabat dövründən sonra baş vermiş hadisələr" Qeydində açıqlanır. Mənfəətdən dividendlər və digər ödənişlər Müəssisənin yerli qanunvericiliyə uyğun hazırlanmış maliyyə hesabatlarına əsasən həyata keçirilir. Azərbaycan qanunvericiliyində cari ilin xalis mənfəəti bölüşdürmənin əsası kimi müəyyən edilir.

***Xarici valyutanın yenidən qiymətləndirilməsi.*** Monetar aktiv və passivlər, ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən Müəssisənin funksional valyutasına çevrilir. Xarici valyuta ilə əməliyyatların həyata keçirilməsi və ilin sonuna ARMB-nin rəsmi valyuta məzənnəsi ilə xarici valyutada ifadə olunan monetar aktiv və passivlərin Müəssisənin funksional valyutasına çevrilməsi nəticəsində yaranan müsbət və mənfi məzənnə fərqləri mənfəət və zərərə aid edilir. İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızlarının ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə yenidən qiymətləndirmə nəticəsində gəlir və ya xərclərin bir hissəsi kimi əks etdirilir.

31 dekabr 2015-ci il tarixinə qüvvədə olan valyuta məzənnələri: 1 ABŞ dolları = 1 ABŞ dolları = 1.5594 AZN və 1 Avro = 1.7046 AZN (31 dekabr 2014: 1 ABŞ dolları = 0.7844 AZN və 1 Avro = 0.9522 AZN).

Müəssisə növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən məbləğlərə və aktiv və passivlərin balans dəyərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçinin peşəkar mülahizələr və ehtimallar irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və passivlərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

***Əsas vəsaitlər və qeyri-maddi aktivlərin faydalı xidmət müddəti.*** Rəhbərlik, əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə təxmin edilən ədalətli dəyəri və müvafiq amortizasiya ayırmalarını müəyyən edir. Bu təxminlər, Müəssisənin həmin aktivlər üzrə iqtisadi səmərə əldə etməyi planlaşdırdığı dövrə əsaslanır. Əgər faydalı xidmət müddəti əvvəlki illərdə təxmin edilmiş faydalı müddətdən aşağı olarsa, o zaman rəhbərlik amortizasiya ayırmasını artıracaq və ya ləğv edilmiş və ya satılmış texniki cəhətdən köhnəlmiş aktivləri siləcəkdir. Faydalı xidmət müddətinə hər maliyyə ilinin sonunda yenidən baxılır. Yuxarıdakı şərtlərdən və ya təxminlərdən hər hansı dəyişərsə, bu amortizasiya dərəcələrində dəyişiklilərin baş verməsinə səbəb ola bilər.

## 4. Binalar, Qurğular və Avadanlıqlar

| | 31 Dekabr 2015 | 31 Dekabr 2014 |
|---|---|---|
| Binalar | 15 | - |
| Digər əsas vəsaitlər | 66 | 80 |
| Hesablama texnika və digər avadanlıqlar | 186 | 50 |
| İstehsalatda istifadə olunan maşınlar və avadanlıqlar | 3,970 | 3,635 |
| Nəqliyyat vasitələri | 695 | 222 |
| Torpaq | 193 | 193 |
| **Cəmi** | **5,125** | **4,180** |

## 5. Mal-Material Ehtiyyatları və Hazır Məhsul

*(Min Azərbaycan Manatı ilə)*

| | 31 Dekabr 15 | 31 Dekabr 2014 |
|---|---|---|
| Hazır məhsul | 5,055 | 3,600 |
| Anbarda olan mallar | 8,010 | 5,000 |
| Yolda olan mallar | - | - |
| Xammal və digər mallar | 1,281 | 722 |
| Yanacaq | - | - |
| İnventar və təsərrufat ləvazimatları | 19 | 18 |
| **Cəmi mal-material ehtiyatları** | **14,365** | **9,340** |

### 6. Ticarət və Digər Debitor Borcları

| *Min Azərbaycan Manatı ilə* | 31 Dekabr 2015 | 31 Dekabr 2014 |
|---|---|---|
| Debtor borclar | 269 | 848 |
| **Debitor və digər borclara daxil olan maliyyə aktivləri** | **269** | **848** |
| Verilmiş avanslar üzrə hesablaşmalar | 1,410 | 2,977 |
| Əvəzləşdiriləbilən ƏDV | 1,915 | 1,134 |
| **Cəmi debitor borcları və digər qısamüddətli aktivlər** | **3,594** | **4,959** |

### 7. Pul Vəsaitləri və Onların Ekvivalentləri

| *Min Azərbaycan Manatı ilə* | 31 Dekabr 2015 | 31 Dekabr 2014 |
|---|---|---|
| Nəğd pul | 63 | 76 |
| Tələb üzrə ödənilən bank qalıqları | 153 | 610 |
| ƏDV depozit hesabı | 165 | 165 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **381** | **851** |

## 8. Nizamnamə Kapitalı

Şirkət tamamilə Alik Kərimova məxsusdur. Şirkətin 10 AZN səhmlərinin 100% -i Alik Kərimovun payına düşür.

## 9. Borc Vəsaitləri

| Bank | Valyuta | Faiz dərəcəsi | 31.12.2014 tarixinə balans | Ödəniş | Kredit götürülməsi | 31.12.2015 tarixinə balans |
|---|---|---|---|---|---|---|
| Yapikredi Bank | AZN | 17% | 2,750 | 2,750 | 3,662 | 3,662 |
| Unibank | USD | 8.80% | 1,173 | 1,173 | 5,194 | 5,194 |
| **Cəmi** | | | **3,923** | **3,923** | **8,856** | **8,856** |

## 10. Kreditor Borcları

**Cari ticari və digər kreditor borclarının hərəkəti aşağıdakı kimidir:**
Min Azərbaycan Manatı ilə

| | 31 Dekabr 2015 | 31 Dekabr 2014 |
|---|---|---|
| Kreditor borcları | 1,165 | 4,608 |
| Yığılmış əmək haqqı | 63 | 43 |
| Yığılmış öhdəliklər və digər kreditor borclar | 9,243 | 1,454 |
| Kreditor borclarına daxil olan cəmi maliyyə aktivləri | **10,471** | **6,105** |
| Alınmış avans ödənişləri | 10 | 248 |
| **Cəmi kreditor borcları** | **10,481** | **6,353** |

Ticarət borcları təminatsızdır və adətən tanındıqdan sonra 30 gün ərzində ödənilir. Ticarət və digər borc öhdəliklərinin balans dəyəri onların qısamüddətli xarakterindən asılı olaraq ədalətli dəyər kimi qəbul edilir.

### 11. Gəlirin Kateqoriya üzrə Analizi

| *Min Azərbaycan Manatı ilə* | **31-Dekabr-2015** | **31-Dekabr -2014** |
|---|---|---|
| Məhsul satışından gəlir | 4,425 | 4,669 |
| Digər gəlirlər | - | - |
| **Cəmi gəlirlər** | **4,425** | **4,669** |

### 12. Satılmış məhsulun maya dəyəri

| *Min Azərbaycan Manatı ilə* | **31-Dekabr-15** | **31-Dekabr-14** |
|---|---|---|
| İstfadə olunmuş mal material | 2,997 | 995 |
| Əmək haqqı xərcləri | 177 | 59 |
| Amortizasiya xərcləri | 195 | 65 |
| Kommunal xərcər | 8 | 3 |
| Digər xərclər | 9 | 3 |
| **Cəmi satışın maya dəyəri** | **3,386** | **1,124** |

### 13. Satış və Digər İnzibati Xərclər

| *Min Azərbaycan Manatı ilə* | **31-Dekabr-15** | **31-Dekabr-14** |
|---|---|---|
| Əmək haqqı xərcləri | 672 | 468 |
| Digər heyət xərcləri | 71 | 49 |
| Reklam və marketinq xərcləri | 157 | 109 |
| Komunnal xərclər | 78 | 54 |
| Bank komissiyaları | 148 | 118 |
| Vergi xərcləri | 559 | 390 |
| Yanacaq xərcləri | 364 | 254 |
| Təmir xərcləri | 12 | 8 |
| Daşınma xərcləri | 9 | 6 |
| Rabitə xərcləri | 90 | 63 |
| Sığorta xərcləri | 274 | 191 |
| Amortizasiya xərcləri | 576 | 401 |
| Digər xərclər | 688 | 479 |
| İcarə xərcləri | 75 | 52 |
| **Cəmi satış və digər inzibati xərclər** | **3,773** | **2,644** |

**14. Maliyyə Xərcləri**

| *Min Azərbaycan Manatı ilə* | **2015** | **2014** |
|---|---|---|
| Faiz xərcləri | 981 | 669 |
| **Mənfəət və zərər haqqında hesabatda tanınan cəmi maliyyə xərcləri** | **981** | **669** |

**5. Şərti Öhdəliklər**

***Məhkəmə prosedurları.*** Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Müəssisəyə qarşı irəli sürülür. Tışkilatın Rəhbərliyi öz təxminlərinə, daxili və kənar peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında hər hansı ehtiyat yaradılmamışdır.

***Vergi qanunvericiliyi.*** Müəssisəyə tətbiq edilən vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Müəssisənin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair rəhbərliyin şərhlərinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər. Bunun nəticəsində, Müəssisəyə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. 31 dekabr 2011-cu il tarixində tamamlanan maliyyə ilindən başlayaraq vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Azərbaycan Respublikası Vergi Məcəlləsinin bu maddəsi irəliyə dönümlü olaraq tətbiq edilir, yəni 2011-cu ildən əvvəlki maliyyə illərinə aid edilmir. Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər. Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Müəssisənin mövqeləri qorunacaqdır. Müvafiq olaraq, 31 dekabr 2015-cü il tarixinə potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır.

***Kapital məsrəfləri ilə bağlı öhdəliklər.*** 31 dekabr 2015-cü il tarixinə Müəssisənin kapital məsrəfləri ilə bağlı əhəmiyyətli öhdəlikləri olmamışdır.

***Əməliyyat lizinqi ilə bağlı öhdəliklər.*** 31 dekabr 2015-cü il tarixinə Müəssisənin ləğv oluna bilməyən əməliyyat lizinq müqaviləsi üzrə əhəmiyyətli öhdəlikləri olmamışdır

**6. Hesabat Dövründən Sonrakı Hadisələr**

Hesabat dövründən sonra açıqlanma üçün heç bir vacib əməliyyat qeydə alınmamışdır.

# METAK MMC

**31 dekabr 2016-cı il tarixinə**

**Milli Mühasibat Uçotu Standartlarına Uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorun Rəyi**

## MÜNDƏRİCAT

MÜSTƏQİL AUDİTORUN RƏYİ ........ 3

MALİYYƏ HESABATLARI

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT ........ 4

MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT ........ 5

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT ........ 6

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI ........ 7

MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR ........ 8-20

## MÜSTƏQİL AUDİTORUN RƏYİ

"METAK" MMC-nin İdarə heyətinə:

***Maliyyə hesabatları üzrə auditor hesabatı***

Biz "METAK" MMC-nin ("Müəssisə") 31 dekabr 2016-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə tamamlanan il üzrə məcmu gəlirlər, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas uçot siyasətinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

***Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti***

Hazırkı maliyyə hesabatların Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və eləcə də saxtakarlıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sisteminină görə Rəhbərlik məsuliyyət daşıyır.

***Auditorun məsuliyyəti***

Bizim məsuliyyətimiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy bildirməkdir. Biz, auditi Milli Mühasibat Uçotu Standartlarına uyğun aparmışıq. Həmin Standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, auditə mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot ehtimallarının əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Rəy***

Bizim rəyimizcə, əlavə edilən maliyyə hesabatları "METAK" MMC-nin 31 dekabr 2016-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün əks etdirir.

Prime Audit & Consulting member firm of Praxity

11 Avqust 2017-ci il
Bakı, Azərbaycan Respublikası

METAK MMC

## MALİYYƏ VƏZİYYƏTİNƏ DAİR HESABAT
## 31 DEKABR 2016-CI İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ

*(Min Azərbaycan Manatı ilə)*

| | Qeyd | 2016 | *audit olunmayıb* 2015 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Binalar, Qurğular və Avadanlıqlar | 4 | 4,026 | 5,125 |
| Qeyri maddi aktivlər | | 150 | 8 |
| Digər uzunmüddətli aktivlər | | 42 | 2 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **4,218** | **5,135** |
| **Cari Aktivlər** | | | |
| Mal-material ehtiyatları | 5 | 19,800 | 9,310 |
| Hazır məhsul | 5 | 9,330 | 5,055 |
| Debitor borcları | 6 | 3,622 | 269 |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 7 | 49 | 216 |
| Vergi hesabı üzrə artıq ödəmə | | 2,721 | 1,915 |
| Verilmiş avanslar üzrə hesablaşmalar | 6 | 4,596 | 1,410 |
| **Cəmi cari aktivlər** | | **40,118** | **18,175** |
| **CƏMİ AKTİVLƏR** | | **44,336** | **23,310** |
| **KAPİTAL** | | | |
| Cari ilin mənfəəti | | 3,158 | (5,875) |
| Səhmdarlarla hesablaşmalar | | 11,190 | 11,190 |
| Nizamnamə kapital | 8 | - | - |
| Bölüşdürülməmiş mənfəət | | (7,217) | (1,342) |
| **Müəssisənin səhmdarlarına aid kapital** | | **7,131** | **3,973** |
| **CƏMİ SƏHMDAR KAPİTALI** | | **7,131** | **3,973** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Cari öhdəliklər** | | | |
| Qısamüddətli kreditlər | 9 | 10,725 | 8,856 |
| Kreditor borcları | 11 | 2,290 | 1,165 |
| Əmək haqqı borcları | | 21 | 63 |
| Digər qısa müddətli öhdəliklər | | 23,484 | 9,243 |
| Alınmış avanslar üzrə hesablaşmalar | | 685 | 10 |
| **Cəmi cari öhdəliklər** | | **37,205** | **19,337** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **37,205** | **19,337** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **44,336** | **23,310** |

11 Avqust 2017-ci il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Aydın Kərimov
İcraçı Direktor

Fuad Zülfüqarov
Maliyyə Direktoru

**METAK MMC**

**MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2016-CI İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ**
*(Min Azərbaycan Manatı ilə)*

| | Qeyd | 2016 | *audit olunmayıb* 2015 |
|---|---|---|---|
| Məhsul satışından gəlir | 12 | 28,505 | 4,425 |
| Satılmış məhsulun maya dəyəri | 13 | (21,276) | (3,386) |
| **Xalis mənfəət** | | **7,229** | **1,039** |
| Ümumi və inzibati xərclər | 14 | (3,057) | (4,754) |
| **Əməliyyat gəliri** | | **4,172** | **(3,715)** |
| Maliyyə xərcləri | 15 | (797) | - |
| Məzənnə fərqi üzrə gəlir | | (217) | (2,160) |
| **Vergidən əvvəlki mənfəət** | | **3,158** | (5,875) |
| Mənfəət vergisi xərci | | - | - |
| **İl üzrə mənfəət** | | **3,158** | **(5,875)** |
| **Digər məcmu gəlirlər** | | - | - |
| **İl üzrə cəmi məcmu gəlir** | | **3,158** | **(5,875)** |

11 Avqust 2017-cı il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Aydın Kərimov
İcraçı Direktor

Fuad Zülfüqarov
Maliyyə Direktoru

METAK MMC

## SƏHMDAR KAPİTALINDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2016-CI İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ
*(Min Azərbaycan Manatı ilə)*

| | Ödənilmiş kapital | Səhmdarlarla hesablaşmalar | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2015-ci il tarixinə qalıq** *audit olunmayıb* | - | **11,190** | **(7,217)** | **3,973** |
| Səhmdar kapitalında artma | - | - | - | - |
| 2016-ci il üzrə cəmi məcmu gəlir | - | - | 3,158 | **3,158** |
| **31 dekabr 2016-ci il tarixinə qalıq** | - | **11,190** | **(4,059)** | **7,131** |

11 Avqust 2016-cıil tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Aydın Kərimov
İcraçı Direktor

Fuad Zulfuqarov
Maliyyə Direktoru

**METAK MMC**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2016-CI İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ**
*(Min Azərbaycan Manatı ilə)*

| | Qeyd | 2016 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Vergidən əvvəlki mənfəət | | 3,158 |
| Düzəlişlər: | | |
| Mal-materialın silinməsi | | - |
| Binalar, qurğular və avadanlıqlar üzrə mortizasiya xərcləri | | 1,415 |
| Xarici valyuta əməliyyatları üzrə kurs fərqlərindən mənfəət | | 218 |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | **4,791** |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | | |
| Debitor borclarda xalis (artım)/azalma | | (7,345) |
| Mal-material ehtiyatlarında xalis (artım)/azalma | | (14,765) |
| Kreditor borclarda xalis artım/(azalma) | | 17,867 |
| Digər öhdəliklərdə xalis artım/azalma | | - |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | |
| Ödənilmiş mənfəət vergisi | | - |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **548** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Bina, Qurğu və Avadanlıqların alınması | | (356) |
| Qeyri maddi aktivlərin alınması | | (142) |
| Əsas vəsaitlərin satışından gəlir | | - |
| **İnvestisiya fəaliyyətlərinə yönəlmiş xalis pul vəsaitləri** | | **(498)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Kapitalın artırılması | | - |
| Digər borc götürülmüş vəsaitlərdən daxilolmalar | | - |
| Borc götürülmüş digər vəsaitlərin qaytarılması | | - |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | (217) |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma/(azalma)** | | **(167)** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | | **216** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | | **49** |

11 Avqust 2017-cı il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti METAK Azerbaijan Republic Limited Liability Company

Aydın Kərimov
İcraçı Direktor

Fuad Zülfüqarov
Maliyyə Direktoru

## 1. Müəssisə və Onun Əsas Fəaliyyəti

"Metak" Məhdud Məsuliyyətli Cəmiyyəti ("Müəssisə") 1997-ci ildə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən təsis edilmişdir. Müəssisə tikinti-montaj və istehsal fəaliyyətləri ilə məşğul olur.
"METAK" MMC –ninsəhmlərinin 100% -i Alik Kərimovun payına düşür və müəssisəyə yekun nəzarət ona məxsusdur.
Müəssisənin rəsmi qeydiyyat ünvanı Nərimanov ray., Böyükşor küç.2,Dalan 2a, Bakı şəhəri,Azərbaycan Respublikası. 31 dekabr 2016-cı il tarixinə müvafiq olaraq 447 işçidən ibarətdir.

## 2. Əməliyyat Mühiti

Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər, o cümlədən digər ölkələrdə sərbəst dönərli olmayan valyuta, xarici valyuta əməliyyatları üzrə ciddi nəzarət və nisbətən yüksək inflyasiya səviyyəsi mövcuddur.Həmin xüsusiyyətlərə aşağıdakılar daxil olmaqla, lakin bunlarla məhdudlaşmamaqla, digər ölkələrdə sərbəst dönərli olmayan valyuta, yüksək inflyasiya səviyyəsi və dövlət və özəl sektorda borc və pay qiymətli kağızları bazarında aşağı likvidlik səviyyəsidaxildir.

Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyində tez-tez müxtəlif şərhlər və dəyişikliklər baş verir. Azərbaycan Respublikasında iqtisadi inkişafın gələcək perspektivləri Hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və monetar islahatların effektivliyindən, eləcə də hüquqi, normativ və siyasi hadisələrin gedişatından xeyli dərəcədəasılıdır.

***Qlobal və Azərbaycanın maliyyə bazarlarındakı son qeyri-sabitlik.*** 2007-ci ilin ortalarında yaranmış qlobal likvidliyin kəskin surətdə azalması ilə əlaqədar olaraq yaranmış qlobal maliyyə və iqtisadi böhran kapital bazarlarında maliyyələşdirmə səviyyəsinin aşağı düşməsinə, bank sektoru və iqtisadiyyatın bütün sahələrində likvidlik səviyyəsinin azalmasına və bəzən banklararası kredit dərəcələrinin artmasına və fond və valyuta bazarlarında çox yüksək dəyişkənliyə səbəb olmuşdur. Qlobal maliyyə bazarlarında baş verən qeyri-müəyyənliklər həmçinin Amerika Birləşmiş Ştatları, Qərbi Avropa və Rusiya və digər ölkələrdə bankların və digər təşkilatların müflisləşməsinə gətirib çıxarmışdır. Qlobal maliyyə böhranının tam təsirini proqnozlaşdırmaq və ya ona qarşı tədbirlər görmək çətinlik doğurur.

Azərbaycanla bərabər bir çox ölkələr son zamanlar maliyyə bazarında baş verən irəliyişləri qeyd etmişdirlər, gələcəkdə qiymətlərin enməsi baş verə bilər və dövlət dəstəyi zəruri ola bilər. Əksinə dəyişikliklər qlobal maliyyə sistemindəki risklərdən, həmçinin kredit bazarındakı sıxılmalar və yaxud neft və qaz qiymətlərinin inkar edilməsi, bir çox ölkələrin o cümlədən Azərbaycanın iqtisadiyyatını zəyiflədə və yaxud ağır zərbələr vura bilər.

Rəhbərlik, mövcud şəraitdə Müəssisənin fasiləsiz fəaliyyətini və inkişafını təmin etmək üçün bütün lazımi tədbirlərin görüldüyünü hesab edir.

***Maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri:*** Müəssisənin hazırkı maliyyə hesabatları Milli Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Milli Mühasibat UçotuStandartları ("MMUS") əsasında hazırlanmışdır. Maliyyə hesabatlarının hazırlanmasında istifadə olunmuş əsas mühasibat qaydaları aşağıdakılardır. Əgər başqa qaydalar göstərilməyibsə, bu qaydalar davamlı olaraq hesabatın bütün hissələrinə aid edilmişdir.

**3. Əsas Uçot Prinsiplərinin Xülasəsi**

***Maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri:*** Müəssisənin hazırkı maliyyə hesabatları Milli Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Milli Mühasibat Uçotu Standartları ("MMUS") əsasında hazırlanmışdır. Maliyyə hesabatlarının hazırlanmasında istifadə olunmuş əsas mühasibat qaydaları aşağıdakılardır. Əgər başqa qaydalar göstərilməyibsə, bu qaydalar davamlı olaraq hesabatın bütün hissələrinə aid edilmişdir.

***Əməliyyat valyutası.*** Hazırkı maliyyə hesabatlarındakı məbləğlər min Azərbaycan Manatı ilə ("AZN") əks olunmuşdur. Azərbaycan Manatı Azərbaycan Respublikasının rəsmi valyutasıdır.

31 dekabr 2016-cı il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan əsas valyuta məzənnələri: 1 ABŞ dolları = 1.7707 AZN (31 dekabr 2015: 1 ABŞ dolları = 1.5594 AZN).

***Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları.*** Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

Ədalətli dəyər müstəqil şəkildə fəaliyyət göstərən yaxşı məlumatlandırılmış müstəqil tərəflər arasında əməliyyatın ümumi şərtlər əsasında həyata keçirildiyi zaman aktivin mübadilə edilə bildiyi və ya öhdəliyin yerinə yetirildiyi məbləği təşkil edir. Ədalətli dəyər fəal bazarda alınıb satılan maliyyə aktivləri üzrə cari tələb qiymətini və maliyyə öhdəlikləri üzrə cari təklif qiymətini əks etdirir. Bazar riskləri qarşılıqlı şəkildə əvəzləşdirilən aktiv və öhdəliklər ilə əlaqədar, Müəssisə qarşılıqlı surətdə əvəzləşdirilən risklər üzrə ədalətli dəyər göstəricilərinin müəyyən edilməsi üçün orta bazar qiymətlərindən istifadə edə bilər və xalis açıq mövqeyə müvafiq tələb və təklif qiyməti tətbiq edə bilər. Maliyyə aləti fəal bazarda o zaman sərbəst surətdə alınıb satıla bilən aktivlər kimi qəbul edilir ki, onların qiymətləri haqqında məlumat fond birjasında və ya digər maliyyə təşkilatından sərbəst və müntəzəm şəkildə əldə edilə bilsin və bu zaman həmin qiymətlər könüllü şəkildə bazar şərtləri çərçivəsində həyata keçirilən real və müntəzəm əməliyyatları əks etdirsin.

Bazar qiymətləri mövcud olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün diskont edilmiş pul vəsaitlərinin hərəkəti modeli, könüllü şəkildə həyata keçirilən ən son əməliyyatlar haqqında məlumata əsaslanan modellər kimi qiymətləndirmə üsulları, eləcə də investisiya qoyulan müəssisələr haqqında maliyyə məlumatlarının təhlili istifadə edilir. Qiymətləndirmə üsulları müşahidə edilə bilən bazar məlumatları ilə dəstəklənməyən fərziyyələrin istifadə olunmasını tələb edə bilər. Bu fərziyyələrin hər hansı birinin mümkün alternativ variantla əvəz edilməsi nəticəsində mənfəət, gəlir, aktiv və passivlərin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb olacaq hallar barədə məlumat hazırkı maliyyə hesabatlarında açıqlanır.

İlkin dəyər alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitlərini və ya onların ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir. İlkin dəyərlə qiymətləndirmə yalnız bazar qiymətləri olmayan və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən pay alətlərindəki investisiyalara, eləcə də açıq bazarda kotirovkası olmayan və pay alətləri ilə ödənilməli və onlara bağlı olan derivativlərə tətbiq edilir.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir.

Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri maliyyə xərclərinə daxil edilmir.

Amortizasiya olunmuş maya dəyəri əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və müvafiq aktiv və passivlərin balans dəyərinə daxil edilir.

*Effektiv faiz metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit yayılımını əks etdirən mükafatlar və ya diskont, yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir (gəlir və xərclərin uçotu siyasətinə baxın).

***Əsas vəsaitlər.*** Əsas vəsaitlər, yığılmış amortizasiyanı və tələb olunduqda dəyərsizləşmə üzrə ehtiyatı çıxmaqla, ilkin dəyərdə qeydə alınır.Satışdan yaranan gəlir və zərər, gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və zərərdə əks etdirlir.

***Amortizasiya.*** Torpaq üçün amortizasiya hesablanmır. Digər əsas vəsaitlər üzrə amortizasiya düz xətt metoduna, yəni əsas vəsaitlərin aşağıda göstərilən təxmini faydalı xidmət müddəti ərzində aktivlərin ilkin dəyərini və ya yenidən qiymətləndirilmiş dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır:

| | İllər üzrə faydalı ömür |
|---|---|
| Binalar | 15 il |
| Bina və avadanlıqlar | 4 – 5 il |
| Nəqliyyat vasitələri | 4 – 5 il |
| Mebel, qurğular və sair | 4 il |
| Kompyuter və rabitə avadanlıqları | 4 il |
| Digər | 4 – 5 il |

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Müəssisənin həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir.

Aktivlərin qalıq dəyərləri və faydalı xidmət müddətləri lazım olduqda hesabat dövrünün sonunda nəzərdən keçirilir və dəqiqləşdirilir.

***Əməliyyat lizinqi.*** Müəssisə lizinqalan qismində çıxış etdikdə və lizinq obyektlərinin mülkiyyət hüququ ilə əlaqədar risk və gəlirlər lizinqverən tərəfindən Müəssisəyə ötürülmədikdə, əməliyyat lizinqi müqavilələri üzrə cəmi ödənişlər lizinqin müddəti ərzində düz xətt metoduna əsasən mənfəət və zərərə aid edilir. Lizinq müddəti o vaxt uzunmüddətli və ya ləğv edilməmiş sayılır ki, icarəyə götürənlə əvvəlcədən müqaviləyə həmin icarənin daimi icarəyə götürüləcəyi barədə əlavə bənd daxil edilir və icarəyə götürənin də bu bəndə əməl edəcəyi əvvəlcədən bilinir.

***Qeyri-maddi aktivlər.*** Müəssisənin bütün qeyri-maddi aktivləri qudvildən başqa, müəyyən faydalı xidmət müddətinə malik olmaqla əsasən kapitallaşdırılmış proqram təminatından, patentlərdən, ticarət nişanlarından və lisenziyalardan ibarətdir.Əldə edilmiş proqram təminatı lisenziyaları, patentlər və ticarət nişanları onların alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır.

***Mənfəət vergisi.*** Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş müvafiq qanunvericiliyinə uyğun olaraq göstərilmişdir Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə bilavasitə kapitalda qeydə alınan əməliyyatlar istisna olmaqla, məcmu gəlirlər haqqında hesabatda qeydə alınır.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Mənfəət vergisindən başqa digər vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və passivlərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədilə onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. Təxirə salınmış vergi qalıqları, balans tarixinə qüvvədə olan vergi dərəcələrinə əsasən müvafiq təxirə salınmış mənfəət vergisi öhdəliyi aktivi müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi aktivi və ya öhdəliyi ancaq bir müəssisə daxilində əvəzləşdirilə bilər. Təxirə salınmış vergi aktivi müvəqqəti fərqlərdən yaranan və eləcə də keçmiş illərdən gələn zərərdən yaranmış olan vergi aktivi ancaq o vaxt istifadə edilə və ya tanına bilər ki, gələcək illərdə müəssisənin gəlir əldə edəcəyi guman edilir.

Təxirə salınmış vergi aktivləri mövcud fərqlərin gələcək vergi mənfəətindən tutulması mümkün olacağı halda tanınır.

Təxirə salınmış mənfəət vergisi müvəqqəti fərqlərin bərpa vaxtına Müəssisə tərəfindən nəzarət olunması və müvəqqəti fərqlərin yaxın gələcəkdə dəyişilməsi ehtimalının mümkünlüyu istisna olmaqla şərik və törəmə müəssisələrə qoyulan investisiyalardan irəli gələn müvəqqəti fəqlərdən təmin olunur.

Təxirə salınmış mənfəət vergisi tamamilə tanınma və aktivlərin silinməsi öhdəliyinin təminatının sonrakı qiymətləndirilməsindən irəli gələn və mülkiyyət, tikili və avadanlıqların dəyəri ilə bağlı düzəlişlərdən əmələ gələn müvəqqəti fərqlər hesabına təmin olunur.

***Mal-material ehtiyatları.*** Mal-material ehtiyatları maya dəyəri ilə xalis satış dəyərindən ən aşağı olan dəyərdə qeydə alınır. Mal-material ehtiyatlarının maya dəyəri orta çəki metodu ilə müəyyən edilir. Hazır məhsul və başa çatdırılmamış tikinti işlərinin maya dəyərinə borc vəsaitləri üzrə xərclər istisna olmaqla, xammal, birbaşa işçi qüvvəsi, digər birbaşa xərclər və müvafiq istehsal xərcləri (normal iş həcminə əsasən) daxildir. Xalis satış dəyəri işin başa çatdırılma və satış xərcləri çıxılmaqla, fəaliyyətin adi gedişində təxmin edilən satış qiymətidir.

***Debitor borcları.*** Debitor borcları effektiv faiz metoduna əsasən amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

***Qabaqcadan ödənişlər.*** Qabaqcadan ödənişlər dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla maya dəyərində uçota alınır. Qabaqcadan ödənişə aid olan mal və xidmətlərin bir ildən sonra əldə edilməsi gözlənildikdə və ya qabaqcadan ödəniş ilkin uçot zamanı uzunmüddətli aktiv kimi təsnifləşdirilən aktivə aid olduqda, qabaqcadan ödəniş uzunmüddətli aktiv kimi təsnifləşdirilir. Aktivlərin alınması üçün qabaqcadan ödənişlər, Müəssisənin həmin aktiv üzrə nəzarəti əldə etdiyi halda və həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Müəssisəyə daxil olması ehtimal edildikdə, həmin aktivin balans dəyərinə köçürülür. Digər qabaqcadan ödənişlər, qabaqcadan ödənişlərə aid olan mal və xidmətlər əldə edildikdə mənfəət və zərər hesabatına silinir. Qabaqcadan ödənişlərə aid olan aktivlər, mal və xidmətlərin əldə edilməyəcəyinə dair əlamət mövcud olduqda, qabaqcadan ödənişin balans dəyəri silinir və müvafiq dəyərsizləşmə üzrə zərər il üzrə mənfəət və zərər hesabatında qeydə alınır.

***Pul vəsaitləri və onların ekvivalentləri.*** Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul, bank hesablarındakı tələb edilənədək və ilkin ödəmə müddəti üç ay və ya az olan digər qısamüddətli və yüksək likvidli investisiyalar daxildir.

***Məhdudiyyət qoyulmuş pul vəsaitləri.*** Məhdudiyyət qoyulmuş pul vəsaitləri və onların ekvivalentlərində ayrı ayrılıqda əks etdirilir. Pul vəsaitləri hərəkəti haqqında hesabatda məhdudiyyət qoyulmuş balans pul vəsaitləri və onların ekvivalentlərinin tərkibində əks etdirilmir.

***Kreditor borcları.*** Kreditor borcları ilkin olaraq ədalətli dəyərdə uçota alınır və sonradan effektiv faiz metoduna əsasən amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

***Borc vəsaitləri.*** Bütün borc vəsaitləri ilkin olaraq borc vəsaitləri ilə əlaqədar olaraq qiymətli kağızların emissiyasında əldə edilmiş xalis gəlirin ədalətli dəyərində tanınır. Borc vəsaitləri effektiv faiz metodunu istifadə etməklə amortizasiya dəyəri ilə hesablanır. Əmlak müəssisə və avadanlıqların tikintisinə görə alınmış borc vəsaitləri üzrə faiz xərcləri aktivlərin aidiyyatı üzrə istifadəsi üçün hazırlanması və tamamlanmasına sərf olunan zaman müddətində kapitallaşdırılır. Bütün digər borc xərcləri xərcə silinir.

***Əlavə dəyər vergisi.*** Vergi müfəttişləri alış və satışlar üzrə əlavə dəyər vergisinin (ƏDV) netto əsasında ödənməsinə icazə verirlər.

*ƏDV öhdəliyi:* ƏDV öhdəliyinə balans hesabatı tarixində baş vermiş alışlar üzrə hesablanmış, müştərilərdən alınacaqlardan tutulub vergi müfəttişlərinə ödənilən satışlardan daxil olunan ƏDV aiddir.

Əlavə olaraq balans hesabatı tarixinə aid olmayan satışlar üzrə də ƏDV öhdəliyi (ertələnmiş ƏDV) yaranır. Alınacaqların amortizasiyası üçün ehtiyyatlar hesablanıldıqda köhnəlmə xərci lazimi yerlərdə ƏDV daxil edilməklə xalis debitor borcları üzrə hesablanır. Ertələnmiş ƏDV öhdəliyi debitorun vergi ohdəliklərindən azad edilməsinədək saxlanılır.

*Bərpa olunan ƏDV:* Bərpa olunan ƏDV balans hesabatı tarixindən kənarda baş verən alışlara aiddir. Bərpa olunan ƏDV alışlar üçün ödəniş edildikdən sonra satışdan daxil olan ƏDV-dən tutulur.

***Maliyyə lizinqi.*** Maliyyə lizinqinin başlanğıcından Müəssisə lizinq verən tərəf qismində çıxış etdikdə lizinq ödənişlərin hazırki dəyəri digər aktivlərin daxilində hesablanır. Lizinq gəlirləri xalis effektiv gəlir metodu əsasında hesablanır.

Lizinqin başlanğıcı lizinq müqaviləsi bağlandığı və ya daha əvvəl baş verdiyi təqdirdə öhdəliyin yarandığı tarix qəbul olunur. Bu anlayışın məqsədlərinə uyğun olaraq öhdəlik yazılı olmalı, əməliyyatda marağı olan şəxslər tərəfindən imzalanmalı və əməliyyatın əsas şərtlərini müəyyən etməlidir.

Lizinq götürən şəxs tərəfindən edilmiş hər hansı bir avans ödənişi lizinqə goyulmuş xalis investisiyanı azaldır.

Lizinqdən maliyyə gəlirləri mənfəət hesabatında digər əməliyyatdan gəlirlər bölməsində qeyd edilir.

Köhnəlmə zamanı lizinqə goyulmuş xalis investisiya üçün ehtiyat ayırmaları hesablanır. Maliyyə lizinqi onun hal-hazırki dəyərinin başlanğıc dəyərindən az olduğu halda köhnəlmə baş vermiş hesab olunur. Köhnəlmədən itkilərin məbləği aktivlərin hazırki dəyəri ilə alınacaq maliyyə lizinqinin orijinal effektiv faizlər dərəcələrinə görə hesablanmış gözlənilən gələcək maliyyə axınının hazırki dəyəri arasındaki fərq kimi hesablanır.

***Gəlirlərin tanınması.*** Gəlirlər iqtisadi mənfəətin müəssisəyə axacağı və gəlirin ölçülə biləcəyi dərəcədə tanınır. Gəlirlər endirimlərdən, geri qaytarma və əlavə dəyər vergisindən azad şəkildə əks olunur. Gəlirlər tanınmamışdan əvvəl aşağıdakı xüsusi kriteriyalara əməl olunmalıdır:

*Tikinti müqaviləsi öhdəlikləri*

Müqavilə gəlir və dəyəri müvafiq müqavilənin nəticəsi əminliklə ölçülə bildikdə gəlir və xərclər kimi tanınır. Tamamlanma faizi metodu iş inkişaf etdikcə ilin sonuna kimi sərf edilmiş real xərclərin müqavilədə göstərilmiş layihənin gözlənilən dəyərinə nisbəti şəklində hesablanan işin tamamlanma payına əsasən müqavilə gəlirlərinin müqavilə xərcləri ilə tutuşdurularaq müqavilə üzrə xərclərin tanınması üçün istifadə olunur.

Dəyər və müqavilə haqqının cəmindən ibarət olan gəlir meydana çıxan xərclər və il ərzində qazanılmış müqavilə haqqının faizinə cəmi əsasında tanınır. Başqalarının tikinti öhdəliklərini Idarəetmə, nəzarət və ya koordinasiya Müqavilələri yalnız gəlir haqqına miqdarında tanınır.

Müqavilə xərclərinə bütün material və əmək haqqı xərcləri və dolayı əmək, təchizatçı, alətlər, köhnəlmə və amortizasiya xərcləri kimi müqavilə icrasına aid dolayı xərclər aiddir. Satış, ümumi və inzibati xərclər yarandığı anda mənfəət haqda hesabata daxil edilir. Natamam müqavilələr üzrə gözlənilən itkilər üzrə ehtiyat ayırmaları belə itkilər aşkar olunduğu dövrlərdə tam şəkildə ayrılır. Müqavilə cərimələri üzrə ehtiyatlar və yekun müqavilə razılığı daxil olmaqla iş icrası, iş şəraiti və gözlənilən gəlirlilikdə dəyişikliklər xərclər və

gəlirlərdə dəyişikliklərlə nəticələnə bilər və dəyişiklik edilən tarixdə tanınır. Mənfəət stimulları reallaşdırılması məqsədyönlü olduğu halda gəlirlərə daxil edilir.

Natamam müqavilələr üzrə hesabdan artıq olan xərclər və gözlənilən gəlirlər gəlirlərin hesablanmış məbləğdən artıq tanınmasını təmsil edir. Natamam müqavilələr üzrə xərclər və gözlənilən gəlirdən artıq hesab xərcləri və gözlənilən gəlirdən artıq olan hesabı təmsil edir.

***Əvəzləşdirilmə.*** Maliyyə aktiv və passivlərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi, qeydə alınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq, eləcə də əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək passivi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər.

***Dividendlər.*** Dividendlər elan edildikləri dövrdə kapitalda əks etdirilir. Hesabat dövrünün başa çatmasından sonra, lakin maliyyə hesabatlarının imzalanmasından əvvəl elan edilmiş dividendlər haqqında məlumat "hesabat dövründən sonra baş vermiş hadisələr" Qeydində açıqlanır. Mənfəətdən dividendlər və digər ödənişlər Müəssisənin yerli qanunvericiliyə uyğun hazırlanmış maliyyə hesabatlarına əsasən həyata keçirilir. Azərbaycan qanunvericiliyində cari ilin xalis mənfəəti bölüşdürmənin əsası kimi müəyyən edilir.

***Xarici valyutanın yenidən qiymətləndirilməsi.*** Monetar aktiv və passivlər, ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən Müəssisənin funksional valyutasına çevrilir. Xarici valyuta ilə əməliyyatların həyata keçirilməsi və ilin sonuna ARMB-nin rəsmi valyuta məzənnəsi ilə xarici valyutada ifadə olunan monetar aktiv və passivlərin Müəssisənin funksional valyutasına çevrilməsi nəticəsində yaranan müsbət və mənfi məzənnə fərqləri mənfəət və zərərə aid edilir. İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızlarının ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə yenidən qiymətləndirmə nəticəsində gəlir və ya xərclərin bir hissəsi kimi əks etdirilir.

31 dekabr 2016-cı il tarixinə qüvvədə olan valyuta məzənnələri: 1 ABŞ dolları = 1.7707 AZN və 1 Avro = 1.8644 AZN (31 dekabr 2015: 1 ABŞ dolları = 1.5594 AZN və 1 Avro = 1.7046 AZN).

Müəssisə növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən məbləğlərə və aktiv və passivlərin balans dəyərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçinin peşəkar mülahizələr və ehtimallar irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və passivlərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

***Əsas vəsaitlər və qeyri-maddi aktivlərin faydalı xidmət müddəti.*** Rəhbərlik, əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə təxmin edilən ədalətli dəyəri və müvafiq amortizasiya ayırmalarını müəyyən edir. Bu təxminlər, Müəssisənin həmin aktivlər üzrə iqtisadi səmərə əldə etməyi planlaşdırdığı dövrə əsaslanır. Əgər faydalı xidmət müddəti əvvəlki illərdə təxmin edilmiş faydalı müddətdən aşağı olarsa, o zaman rəhbərlik amortizasiya ayırmasını artıracaq və ya ləğv edilmiş və ya satılmış texniki cəhətdən köhnəlmiş aktivləri siləcəkdir. Faydalı xidmət müddətinə hər maliyyə ilinin sonunda yenidən baxılır. Yuxarıdakı şərtlərdən və ya təxminlərdən hər hansı dəyişərsə, bu amortizasiya dərəcələrində dəyişiklilərin baş verməsinə səbəb ola bilər.

4. **Binalar, Qurğular və Avadanlıqlar**

| | Binalar | Digər əsas vəsaitlər | Hesablama texnika və digər avadanlıqlar | İstehsalatda istifadə olunan maşınlar və avadanlıqlar | Nəqliyyat vasitələri | Torpaq | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **31 dekabr 2015-ci il tarixinə balans dəyəri** | **15** | **66** | **186** | **3,970** | **695** | **193** | **5,125** |
| Əlavələr | - | 1 | 24 | 200 | 91 | - | **316** |
| Silinmə | - | - | - | - | - | - | - |
| Amortizasiya xərci | 1 | 21 | 54 | 1,093 | 246 | - | **1,415** |
| 31 Dekabr 2016 cı il tarixinə yığılmış amortizasiya | 1 | 91 | 69 | 1,357 | 499 | - | **2,017** |
| **31 Dekabr 2016 cı il tarixinə balans dəyəri** | **14** | **46** | **156** | **3,077** | **540** | **193** | **4,026** |

## 5. Mal-Material Ehtiyatları

| *Min Azərbaycan Manatı ilə* | **31-Dek-16** | **31-Dek-15** |
|---|---|---|
| Hazır məhsul | 9,286 | 5,055 |
| Anbarda olan mallar | 16,592 | 8,010 |
| Yolda olan mallar | 44 | - |
| Xammal və digər mallar | 3,181 | 1,281 |
| Yanacaq | 7 | - |
| İnventar və təsərrufat ləvazimatları | 19 | 19 |
| **Cəmi mal-material ehtiyatları** | **2,129** | **14,365** |

Dövr ərzində xərc kimi uçota alınmış mal-material ehtiyatlarının dəyəri 18,134 min AZN (2015: 2,997 AZN) məbləğində satışların maya dəyərində öz əksini tapır.

## 6. Ticarət və Digər Debitor Borcları

Qısa müddətli ticarət və digər alınacaqların siyahısı aşağıdakı kimidir:

| *Min Azərbaycan Manatı ilə* | **31 Dekabr 2016** | **31 Dekabr 2015** |
|---|---|---|
| Debtor borclar | 3,622 | 269 |
| **Debitor və digər borclara daxil olan maliyyə aktivlərinin cəmi** | **3,622** | **269** |
| Verilmiş avanslar üzrə hesablaşmalar | 4,596 | 1,410 |
| Əvəzləşdiriləbilən ƏDV | 2,721 | 1,915 |
| **Cəmi debitor borcları və digər qısamüddətli aktivlər** | **10,939** | **3,594** |

## 7. Pul Vəsaitləri və Onların Ekvivalentləri

| *Min Azərbaycan Manatı ilə* | **31 Dekabr 2016** | **31 Dekabr 2015** |
|---|---|---|
| Nəğd pul | - | 63 |
| Tələb üzrə ödənilən bank qalıqları | 49 | 153 |
| ƏDV depozit hesabı | 59 | 165 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **108** | **381** |

## 8. Nizamnamə Kapitalı

Şirkət tamamilə Alik Kərimova məxsusdur. Şirkətin 10 AZN səhmlərinin 100% -i Alik Kərimovun payına düşür.

## 9. Borc Vəsaitləri

| Bank | Valyuta | Açılma tarixi | Faiz dərəcəsi | 31.12.2015 tarixinə balans | Ödəniş | Kredit götürülməsi | 31.12.2016 tarixinə balans |
|---|---|---|---|---|---|---|---|
| Yapikredi Bank | AZN | 10-İyun-16 | 17% | 3,662 | 8,687 | 10,319 | 5,294 |
| Unibank | USD | 16-May-16 | 8.80% | 5,194 | 39,167 | 39,404 | 5,431 |
| **Cəmi** | | | | **8,856** | **47,854** | **49,723** | **10,725** |

## 10. Digər Ödəniləcək Vergilər

| *Min Azərbaycan Manatı ilə* | 31-Dek-16 | 31-Dek-15 |
|---|---|---|
| Əmlak vergisi | 115 | 73 |
| Gəlir vergisi | 291 | 217 |
| Mənfəət vergisi | 124 | 96 |
| Sankasiyalar | 1,167 | 1,194 |
| Digər ödəniləcək vergilər | 377 | 2 |
| **Cəmi vergi öhdəlikləri** | 2,074 | 1,582 |

## 11. Kreditor Borcları

Cari ticari və digər kreditor borclarının hərəkəti aşağıdakı kimidir:

| *Min Azərbaycan Manatı ilə* | **31 Dekabr 2016** | **31 Dekabr 2015** |
|---|---|---|
| Kreditor borcları | 2,290 | 1,165 |
| Yığılmış əmək haqqı | 21 | 63 |
| Yığılmış öhdəliklər və digər kreditor borcları | 23,484 | 9,243 |
| *Kreditor borclarına daxil olan cəmi maliyyə aktivləri* | **25,795** | **10,471** |
| Alınmış avans ödənişləri | 685 | 10 |
| **Cəmi kreditor borcları** | **26,480** | **10,481** |

Ticarət borcları təminatsızdır və adətən tanındıqdan sonra 30 gün ərzində ödənilir. Ticarət və digər borc öhdəliklərinin balans dəyəri onların qısamüddətli xarakterindən asılı olaraq ədalətli dəyər kimi qəbul edilir.

## 12. Gəlirin Kateqoriya üzrə Analizi

| *Min Azərbaycan Manatı ilə* | **2016** | **2015** |
|---|---|---|
| Məhsul satışından gəlir | 28,505 | 4,425 |
| Digər gəlirlər | - | - |
| **Cəmi gəlirlər** | **28,505** | **4,425** |

## 13. Satılmış məhsulun maya dəyəri

| *Min Azərbaycan Manatı ilə* | 31-Dek-16 | 31-Dek-15 |
|---|---|---|
| İstfadə olunmuş mal material | 18,919 | 2,997 |
| Əmək haqqı xərcləri | 1,072 | 177 |
| Amortizasiya xərcləri | 1,180 | 195 |
| Kommunal xərcər | 51 | 8 |
| Digər xərclər | 54 | 9 |
| **Cəmi satışın maya dəyəri** | **21,276** | **3,386** |

## 14. Satış və Digər İnzibati Xərclər

| *Min Azərbaycan Manatı ilə* | 31-Dek-16 | 31-Dek-15 |
|---|---|---|
| Əmək haqqı xərcləri | 292 | 672 |
| Digər heyət xərcləri | 23 | 71 |
| Reklam və marketinq xərcləri | 148 | 157 |
| Komunnal xərclər | 5 | 78 |
| Bank komissiyaları | 1,209 | 1129 |
| Faiz xərcləri | 797 | - |
| Vergi xərcləri | 425 | 559 |
| Yanacaq xərcləri | 122 | 364 |
| Təmir xərcləri | 14 | 12 |
| Daşınma xərcləri | 25 | 9 |
| Rabitə xərcləri | 55 | 90 |
| Sığorta xərcləri | 64 | 274 |
| Amortizasiya xərcləri | 235 | 576 |
| Digər xərclər | 440 | 688 |
| İcarə xərcləri | - | 75 |
| **Cəmi satış və digər inzibati xərclər** | 3,854 | 4,754 |

## 15. Maliyyə Xərcləri

| *Min Azərbaycan Manatı ilə* | 2016 | 2015 |
|---|---|---|
| Faiz xərcləri | 797 | - |
| **Mənfəət və zərər haqqında hesabatda tanınan cəmi maliyyə xərcləri** | **797** | **-** |

## 16. Şərti Öhdəliklər

***Məhkəmə prosedurları.***Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Müəssisəyə qarşı irəli sürülür.Tışkilatın Rəhbərliyi öz təxminlərinə, daxili və kənar peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında hər hansı ehtiyatyaradılmamışdır.

***Vergi qanunvericiliyi.***Müəssisəyə tətbiq edilən vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır.Müəssisənin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair rəhbərliyin şərhlərinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər.Bunun nəticəsində, Müəssisəyə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. 31 dekabr 2012-cu il tarixində tamamlanan maliyyə ilindən başlayaraq vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Azərbaycan Respublikası Vergi Məcəlləsinin bu maddəsi irəliyə dönümlü olaraq tətbiq edilir, yəni 2012-ci ildən əvvəlki maliyyə illərinə aid edilmir.Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Müəssisənin mövqeləri qorunacaqdır. Müvafiq olaraq, 31 dekabr 2016-cü il tarixinə potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır.

***Kapital məsrəfləri ilə bağlı öhdəliklər.***31 dekabr 2016-cü il tarixinə Müəssisənin kapital məsrəfləri ilə bağlı əhəmiyyətli öhdəlikləri olmamışdır.

***Əməliyyat lizinqi ilə bağlı öhdəliklər.***31 dekabr 2016-cü il tarixinə Müəssisənin ləğv oluna bilməyən əməliyyat lizinq müqaviləsi üzrə əhəmiyyətli öhdəlikləri olmamışdır

## 17. Hesabat Dövründən Sonrakı Hadisələr

Hesabat dövründən sonra açıqlanma üçün heç bir vacib əməliyyat qeydə alınmamışdır.